www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 fevral 2017-ci il Cümə axşamı № 35 (6649) Qiymәti 60 qəpik

**Xəbər**

**Ölkədə daha bir intihar şoku - 11-ci sinif şagirdi özünü binadan atdı**

yazısı səh.14-də

## Gündəm

**“Reiana”dakı terrorun ikinci iştirakçısı haqda sensasion bilgilər**



“Dəniz pişiyi”nin Türkiyəyə gəlişinin pərdəarxası məqamları; İstanbul olayında yaralandığı deyilən amerikalı turistin gerçək missiyası nə olub?

yazısı səh.12-də

**Kremldən yeni “sülh təşəbbüsü” - Lavrov XİN başçılarına nə deyəcək?**

yazısı səh.11-də

**ABŞ-la yaxınlığa görə vurulan nazirlər...**

yazısı səh.6-da

**İmpiçment Trampın qapısını döyür...**

yazısı səh.7-də

**İnsanların həyatına müdaxilə edən xanım general fotosunun çəkilməsinə niyə qəzəbləndi...**

yazısı səh.3-də

**FED-in növbəti qərarı manat üçün təhlükəli ola bilər**

yazısı səh.4-də

**Ermənistanda mart qırğını təkrarlana bilər**

yazısı səh.5-də

**“Lapşinin həbsi, saxlanma şəraiti ilə bağlı heç bir qanun pozuntusu olmayıb” - hüquq müdafiəçisi**

yazısı səh.9-da

**Elmar Məmmədyarov Münhendə həmsədrlərlə görüşəcək**

yazısı səh.8-də

**Bakıda yol polisini söyən 3 sürücü həbs olundu**

yazısı səh.14-də

**Mənzillərin qiyməti iki dəfə ucuzlaşa bilər**

yazısı səh.13-də

## Vaşinqtondan Kreml və satellitini rahatsız edən mövqe

# AĞ EVDƏN ERMƏNİLƏRƏ PİS MÜJDƏ - QARABAĞA “KRIM TƏHLÜKƏSİ” SOVUŞDU!

Trampın Ukrayna məsələsində mövqeyi qətiləşdi: “Rusiya yarımadanı sahibinə qaytarmalıdır”; ABŞ Moskvanın Güney Qafqazda da şəriksiz hegemonluğunu qəbul etməyəcək - Amerikanın regional siyasətində mühüm gəlişmə...




yazısı səh.8-də

## Arif Əsgərovun həbsi reallaşır - ölkədən qaça bilər

Sabiq nazir müavini hazırda müdafiəsiz və himayəçisiz qalıb; iki il öncə istintaqdan yayınmaq üçün Nəqliyyat Nazirliyində formal vəzifə tutan Əsgərov hazırda bütün immunitetini itirmiş durumdadır; canını qurtarmaq üçün onun iki yolu var...

yazısı səh.6-da



*Əliməmməd Nuriyev:*

**“Prezidentin yeni sərəncamı məhbusların sayının artmasının qarşısını alacaq”**

yazısı səh.10-da



*Ziya Əsədov:*

**“Zərdüşt Əlizadə türkçülük, azərbaycançılıq ideyasının düşməni olan atasından danışsın”**

yazısı səh.5-də



*Kamran Əsədov:*

**“İmtahan ödənişlərinin yüksək olması təhsilə ciddi zərbə vura bilər”**

yazısı səh.13-də




# Qanunsuz valyuta alveri edən 5 nəfər saxlanıldı

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən xüsusi əməliyyat-axtarış tədbirləri həyata keçirilib.**

ARB TV xəbər verir ki, nəticədə dəmir yolu nəqliyyatı ilə ölkəmizə gələn xarici turistlərin və yerli vətəndaşların vağzal ərazisində sərbəst hərəkətinə maneçilik törədərək qanunsuz valyuta alqı-satqısı ilə məşğul olan Bakı şəhər sakinləri - Sərdar Musayev, İsmayıl Teyyubov, Əmiraslan Əliyev, Oqtay Fətəliyev və Xəlil İmanov saxlanılıblar.

Həmin şəxslərdən qanunsuz fəaliyyətlərini sübut edən müxtəlif ölkələrin milli valyutaları maddi sübut kimi götürülüb.

Qeyd edilən şəxslər barəsində Baş İdarədə müvafiq araşdırmalar davam etdirilir.

# Vidadi Zeynalov ifadə verməkdən imtina edir

## “Ekspertiza yenidən aparılmalıdır”

**Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com-un məhkəmə prosesində iştirak edən müxbiri xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində ilk olaraq şahid Babayev Mikayıl ifadə verib.

O, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində baş mütəxəssis vəzifəsində çalışdığını və istintaqa verdiyi ifadəni təsdiq etdiyini deyib.

Bakı Telefon Rabitə İstehsalat Birliyinin sabiq rəhbəri, hazırda həbsdə olan Beytulla Hüseynovun vəkili şahidə sual verərək nazirlik tərəfindən görülməsi nəzərdə tutulan işlərin yerinə yetirilib-yetirilmədəyi barədə soruşub. B.Hüseynov vəkilinin sual verməsinə narazılıq edib.

Bundan sonra vəkil sonuncu sualı ilə kifayətlənib.

Şahid isə suala cavabında nazirlik tərəfindən lazım olan bütün işlərin yerinə yetirildiyini bildirib.

Hakim Əfqan Havıyev bir neçə şahidin, o cümlədən Ağayev Əlimövsümün xəstə olduğundan məhkəməyə gələ bilmədiyini və teleqram vuraraq istintaqdakı ifadəsini təsdiq etdiyini qeyd edib.

Digər şahidlər də məhkəməyə müəyyən səbəblərdən gələ bilmədikləri ilə bağlı teleqram vurublar.

Sabiq aparat rəhbəri Vidadi Zeynalov isə buna etiraz edib və deyib: “Mən ifadə verməyəcəm deyəndə deyirsiniz ki, istintaqa ifadəm qəbul ediləcək. İndi bu adamlar niyə gəlib ifadə vermir? Niyə onların ifadəsi qəbul edilir?”

**Hakim isə V.Zeynalovun dediklərinə belə cavab verib:** “Əgər şahidin məhkəməyə gəlmək imkanı yoxdursa və təqsirləndirilən şəxs ifadə vermirsə, onun istintaqa verdiyi ifadəsi elan edilir və məhkəmə tərəfindən qəbul edilir”

Məhkəmənin davamında hakim Vidadi Zeynalova növbəti dəfə ifadə verməyi təklif edib.

**Vidadi Zeynalov isə Maliyyə Nazirliyinin əməkdaşlarının məhkəməyə əlavə şahid kimi gətirilməsini tələb edib:** “Əgər onlar gəlməsə, mən ifadə verməyəcəm. İttihamda qeyd edilən şişirdilmiş qiymətləri Maliyyə Nazirliyinin əməkdaşları qeyd edib. Mənim Maliyyə Nazirliyinin işçilərinə suallarım var. Ekspertiza yenidən aparılmalıdır. İttihamda yazılan rəqəmlərin necə şişirdildiyi aydınlaşdırılmalıdır”.

Məhkəmə yerində müşavirə edərək vəsatətin hazırkı mərhələdə baxılmamış saxlanıldığını elan edib.

Hakim məhkəmənin Vidadi Zeynalovun növbəti dəfə ifadə verməyəcəyi halda onun istintaqdakı ifadəsinin elan edilərək qəbul olunacağını diqqətinə çatdırıb.

Proses fevralın 17-də davam edəcək.

Qeyd edək ki, ittihama görə, Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə təqsirli bilinirlər. Cinayət işinin materiallarında yazılıb ki, nazirliyin tabeliyində olan strukturların təmir-tikintisinə, avadanlıqların alınmasına sərf olunmuş məbləğlər şişirdilib, tenderlər formal keçirilib, layihələrin icrası rəhbərliyə yaxın şirkətlərə həvalə olunub.

❑ İlkin MURADOV


## “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Milli Qəhrəmanın ailəsinə Bakıda üçotaqlı mənzil verildi

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Milli Qəhrəman Çingiz Qurbanovun ailəsinə dövlət tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir.**

Virtualaz.org-un məlumatına görə, dövlət başçısı Ç.Qurbanovun ailəsinin sosial təminatının gücləndirilməsi, o cümlədən Bakı şəhərində 3 otaqlı mənzil ayrılması və həmin mənzildə təmir işlərinin həyata keçirilməsi ilə bağlı aidiyyəti dövlət orqanlarına göstəriş verib. Bundan başqa, Milli Qəhrəmanın ailəsinə Qusar rayonunda ayrılmış torpaq sahəsində fərdi yaşayış evinin tikintisi ilə bağlı tədbirlər görülür.

Qeyd edək ki, Azərbaycan ordusunun əsgəri Çingiz Salman oğlu Qurbanov 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub.



Ç.Qurbanovun cəsədi Prezident İlham Əliyevin tapşırığına əsasən, aidiyyəti dövlət qurumları tərəfindən beynəlxalq təşkilatlarla aparılmış müntəzəm tədbirlər nəticəsində 2017-ci il fevralın 5-də qarşı tərəfdən alınıb. Bakıda təntənəli vida mərasimi keçirildikdən sonra şəhid Ç.Qurbanov fevralın 6-da doğulduğu Qusar rayonunda Şəhidlər Xiyabanında dəfn edilib.

Fevralın 7-də Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilməsi barədə sərəncam imzalayıb.

**Dövlət başçısı fevralın 9-da Milli Qəhrəman Çingiz Qurbanovun ailəsini qəbul edib.**

# Mühakimə olunan MTN zabiti infarkt keçirdi

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə fevralın 15-də növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən proses təxirə salınıb. Buna səbəb Səlim Məmmədovun vəkili Cavid Rzazadənin xəstə olduğu üçün məhkəməyə gəlməməsi olub.

Akif Çovdarovun vəkili Kamandar Nəsibov musavat.com-a deyib ki, məhkəmə fevralın 20-də davam edəcək.

Vəkil deyib ki, Akif Çovdarov səhhəti ilə bağlı heç bir tədbir görülməməsini məhkəməyə bir daha xatırladıb. O, sabiq MTN zabitinin səhhətinin həbsxanada ağırlaşdığını deyib: “Dünən təcridxanada MTN-in əks-kəşfiyyat şöbəsinin rəisi Mirəziz Əsgərov insult və ağır ürək çatışmazlığı ilə gecəyarısı Müalicə Müəssisəsinə aparıldı. Halbuki o, dəfələrlə müayinə və müalicə tələb edirdi. Ona heç bir ixtisaslı həkim-kordioloq tərəfindən yardım göstərilmədi. Məndə bu xəstəliklər var. Birinci İlqar (MTN polkovniki İlqar Əliyev həbsxanada intihar edib) getdi, indi də Mirəziz, növbə məndədir”.

**A.Çovdarov müraciətlərinə cavab verilmədiyindən də gileylənib:** “İnsan nə qədər yazar ki, müayinə edin? Bütün yerlərə yazmışıq. Hakim deyir ki, mənlik deyil, idarə deyir mənlik deyil. Bəs kimlikdir?”

Qeyd edək ki, Akif Çovdarovla birlikdə müttəhimlər kürsüsünə ləğv edilmiş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq işçisi, polkovnik Səlim Məmmədov, MTN-in sabiq idarə rəisi, mayor Akif Əliyev və keçmiş şöbə rəisi Orxan Osmanov da çıxarılıb.

❑ İlkin MURADOV




# Balaca Aişəni həyatda saxlayaq!

**8 yaşlı Aişə talassemiyanın ağır formasından əziyyət çəkir. Ayda iki dəfə ona qan köçürülür. Həkimlərin dediyinə görə, onun sağalması və yaşaması üçün cərrahi əməliyyata ehtiyac var. Bu isə Türkiyədə mümkündür.**

Lakin balaca Aişənin valideynlərinin böyük əməliyyat xərclərini qarşılamaq imkanları yoxdur. Odur ki, çarəsiz valideynlər imkanlı və xeyirxah insanlara üz tutaraq, onlardan kömək istəyirlər. Aişə Mərahim qızı Rəhimova üçün açılmış bank hesabının rekvizitlərini təqdim edirik:

**Manat hesabı:**
Bank Respublika kod: 508773 VOEN 9900001901
Müxbir hesabı: AZ80NABZ01350100000000014944
SWIFT: BRESAZ22 Alan Mərahim Rəhimov
İBAN: AZ06BRES00380194400947151002
**Dollar hesabı:** İtermediary Bank
SWIFT: BKTRUS33
İBAN: AZ97BRES00381184000947151003
Tel: (077) 715 15 55

# Bakıda maşından 29 min manat və 10 min ABŞ dolları oğurlandı

**Bakıda avtomobildən oğurluq olub. “Report”un xəbərinə görə, Binəqədi rayonu, C.Xəndan küçəsi 60 ünvanının qarşısında dayanacaqda 1968-ci il təvəllüdlü Bəxtiyar Mahmudova məxsus “Subaru” markalı avtomobildən külli məbləğdə pul oğurlanıb.**

Belə ki, naməlum şəxs əlini açıq yan şüşədən salmaqla avtomobildə olan 29 min manat və 10 min ABŞ dolları oğurlayıb.



# Dolların məzənnəsi bu gün 1.73-ə yaxın olacaq

**Azərbaycan Mərkəzi Bankı (AMB) fevralın 16-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən “APA-Economics”ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi bu günlə müqayisədə stabil qalaraq 1,7296 səviyyəsində müəyyən olunub.

# Lavrova sual verən jurnalist Anar Həsənov Polad Bülbüloğlundan əfv olunmasını xahiş edir

**Minval.az saytının verdiyi xəbərə görə, jurnalist Anar Həsənov Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlundan əfv olunması üçün xahiş etməyə hazırlaşır.**

Bundan da Anar Həsənovun həm səfirin özü, həm də Polad Bülbüloğunun nüfuz etdiyi şəxslər tərəfindən ciddi təzyiqlərə məruz qalması nəticəsini çıxarmaq olar.

Bildirilir ki, keçən həftə Anar Həsənov Bakıya gələrək yerli KİV-lərdən birində işə düzəlmək istəyib. Lakin onun bütün cəhdləri nəticəsiz qalıb.

Xatırladaq ki, “Lider TV”nin keçmiş müxbiri Anar Həsənov Rusiya xarici işlər naziri Sergey Lavrova Dağlıq Qarabağdakı situasiya ilə bağlı cəsarətli sual ünvanlamış, bu səbəbdən gözdən düşərək işinə son verilmişdi.

Minval az-ın əvvəllər də xəbər verdiyi kimi, jurnalistin Rusiyadakı fəaliyyətinə xitam verilməsi barədə məsələ şəxsən Polad Bülbüloğlunun özü tərəfindən qaldırılıb. Səfir həm Anar Həsənovun verdiyi sualın, həm də Lavrovun qaytardığı cavabın ölkələr arasındakı münasibətlərə xələl gətirdiyini hesab edib.

Polad Bülbüloğlu jurnalistin verdiyi sualı “təxribat” olaraq qiymətləndirmiş və hətta buna görə onu təhqir etmişdi.

# BQXK əməkdaşları Dağlıq Qarabağda saxlanılan Elnur Hüseynzadə ilə görüşüblər

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Dağlıq Qarabağ missiyasının əməkdaşları bu yaxınlarda saxlanılan azərbaycanlıya baş çəkiblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib ki, başçəkmə fevralın 14-də olub.**

Başçəkmə BQXK-nın standart prosedurasına əsasən keçirilib.

İ. Hüseynova həmçinin qeyd edib ki, BXQK mandatına uyğun olaraq saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraitini və onlarla davranışı monitorinq etsin və bu insanların ailələri ilə əlaqə saxlamasına yardımçı olsun.

Qeyd edək ki, Azərbaycan vətəndaşı Elnur Hüseynzadə bir neçə gün əvvəl Talış kəndi istiqamətində naməlum şəraitdə ermənilərin əlinə düşüb.

YENİ MÜSAVAT
N 35 (6649) 16 fevral 2017

# Vəkildən agent olduğunu deyən NİDA-çı ilə bağlı ilginc açıqlama

**Fariz Namazlı:** "Həbsdən çıxan çox adama bu təkliflər edilir"; Rəşad Həsənovun xüsusi xidmət orqanları ilə əməkdaşlığının arxasında gizlənən məqamlar...

**NİDA-çı Rəşad Həsənovun həbsdən çıxandan sonra Dövlət Təhlükəsizlik Xidməti (DTX) ilə əməkdaşlıq etdiyini yazması və ölkəni tərk etməsi hələ də gündəmin müzakirə olunan mövzularındandır. Hazırda R.Həsənov sosial şəbəkədəki hesabını dondurub. Buna görə onunla əlaqə yaratmaq mümkün deyil. Amma zamanında NİDA-çıların işində çıxış etmiş vəkil Fariz Namazlı musavat.com-a müsahibəsində bu istiqamətdəki bütün sualları cavablandırıb.**

Öncə xatırladaq ki, F.Namazlı sosial şəbəkədəki statusunda bu məsələ ilə bağlı mövqeyini belə açıqlayıb: "Mübarizə fərdi olaraq aparılır, kimsə kimin yerinə, kimin üçünsə mübarizə etmir. Rejim fərd olaraq xoşumuza gəlmirsə, daxildə vicdan varsa, mübarizə aparırıq. Bu yolda eyni vicdanlı insanlar müəyyən məqsədlər üçün birləşə bilər. Kimsə həbsə düşürsə, başqalarının yerinə düşmür, öz amalları, əqidəsi uğrunda apardığı mübarizəyə görə düşür, hətta cəmiyyətdən bu həbslərə təpki gəlməsə belə ruhdan düşməyə dəyməz. Mən mübarizə aparıramsa, kimdənsə kömək istəmirəm, həbs olarsa belə yenə də kimsə deyə bilməz ki, kiminsə yerinə həbsə düşdüm. Yaxud kimsə bu həbslərə biganə qalırsa, onları qınamaq düzgün deyil. Hər kəs atdığı addımın nəticəsini bildiyi halda atır. Zatən hakimiyyət açıq, sivil mübarizə aparmır, şərləmə kampaniyaları çoxçeşidli olduğundan nə desən gözləmək olar. Mübarizə aparırsansa, həbsi də göz önünə almalısan, şərlənməni də. Bu, gözləri qorxutmamalıdır".



Fariz Namazlı

**F.Namazlı musavat.com-a müsahibəsində bildirib ki, tək NİDA-çılara deyil, əksər siyasi məhbuslara analoji təkliflər, DTX ilə əməkdaşlıq etmək təklif edilər:** "İstər cəbhəçilər olsun, istər müsavatçılar, istərsə digər şəxslərə qarşı. Daha çox siyasi təşkilat üzvlərinə belə təkliflər olur. Belə şeylər olub və demək olar ki, hamısı bu təklifdən imtina edib".

**F.Namazlı R.Həsənovun bu təklifdən imtina edə bilməməsinin səbəblərini də bilmir:** "Mən bilmirəm ki, o, hansı çıxılmaz vəziyyətdə olub ki, imtina edə bilməyib. O barədə məlumatım olmadığı üçün heç nə deyə bilmərəm. Amma elə insanlar var ki, onların imtina etmək imkanı olmur. Ya onları hansısa hallarla bağlı şantaj edirlər, ya da yaxınlarının, kimlərinsə həbsi ilə qorxudurlar. Ola bilər ki, o da bu şeyləri göz altına alıb, imtina edə bilməsin. Çox adam bu təklifi çıxılmaz vəziyyətdə qaldığı üçün qəbul edib. Rəşad Həsənov da bu təklifi könüllü, xoş niyyətlə qəbul etməyib. Görünür, qarşısında hansısa maneələr və çıxılmaz durum olub ki, bunu qəbul edib. İnsanları ya ailə üzvlərinin həbs olunacağı ilə hədələyirlər, ya da fərqli şantaj metodları tətbiq edirlər. Mən Rəşad Həsənova qarşı hansı variantın tətbiq olunduğunu bilmirəm. Nəyə görə razılaşıb, mənim üçün də qaranlıqdır. Amma bilirəm ki, insan imtina edə bilər".

Amma bu məqamda diqqət doğuran məqamlardan biri də DTX ilə əməkdaşlığın qaydaları və detallarıdır. Hüquqşünas Aslan İsmayılov AzadlıqRadiosuna açıqlamasında deyib ki, bu ənənə sovet dövründən qalıb. Onun sözlərinə görə, adamları agentliyə sövq edənlər insanların mənəviyyatına elə bir zərbə vurur ki, bunun bədəlini heç bir kompensasiya ilə ödəmək mümkün deyil.

Təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl isə deyib ki, hər şey idarəetmə sistemindən asılıdır. Onun sözlərinə görə, demokratik ölkələrdə təhlükəsizlik xidmətlərinin bu cür yanaşması yoxdur. Ekspert bildirib ki, bu gün idarəetmə sistemi elə qurulub ki, xüsusi xidmət orqanları və hüquq-mühafizə orqanlarının əli ilə ictimai fəaliyyətə müdaxilə edirlər.

❑ Sevinc TELMANQIZI

# Ermənistana sığınan vətən xaini ilə bağlı məsələdə İran izi...

**Politoloq:** "Əslində Şahin Mirzəyev məsələsinin kuratoru Ermənistanın müdafiə naziridir, bu adam İranla sıx münasibətdədir"

**Ermənistandan sığınacaq istəmiş Şahin Mirzəyevin bu addımı atması ilə bağlı müxtəlif iddia və versiyalar səsləndirilir. Bəzi iddialara görə, Azərbaycanın son dövrlər apardığı uğurlu diplomatiya, xüsusilə də bloger Aleksandr Lapşinin Bakıya ekstradisiyası Rusiyada bir sıra qüvvələri narahat edib. Buna görə də həmin qüvvələr ermənilərin vasitəsilə Şahin Mirzəyev oyununa əl atıblar.**



Mübariz Əhmədoğlu

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu** isə hesab edir ki, bu iddialar əsassızdır:

"Hesab edirəm ki, Şahin Mirzəyevin Ermənistandan sığınacaq istəməsi məsələsi Lapşin məsələsinin aktuallığ əldə etməsindən əvvəl yaranıb. Şahin Mirzəyevin bu addımı atmasının kuratoru Ermənistanın müdafiə naziri Vigen Sarkisyan olub. Onunla bağlı geniş açıqlamanı Vigen Sarkisyan verdi. Məsələ belədir ki, bu adam Ermənistan prezident administrasiyasının rəhbəri olduğu dövrdən bəri İranla sıx əlaqədə olub. İndi də İranda Azərbaycana qarşı işləyən müəyyən qrup Vigen Sarkisyanla çox sıx əlaqədədir. Hətta Azərbaycanın ərazisində birgə layihələr də reallaşdırıblar. O, müdafiə naziri təyin olunan zaman da yeganə İran oldu ki, onu təbrik etdi. İranın müdafiə nazirinin müavini Vigen Sarkisyanla görüşərək, onu şəxsən təbrik etdi. Vigen Sarkisyanın özü də bu yaxınlarda İranda olmuşdu. Görünür, bağlı qapı arxasında danışılan məsələlərdən biri də Ermənistan vətəndaşlarının Azərbaycana ayaq açması ilə bağlı olub. Bunun Ermənistanın imicinə zərbə olduğunu qəbul edərək, Azərbaycanın da guya imicinə ziyan vermək üçün plan cızıblar. Şahin Mirzəyev məsələsini də buna görə istifadə etdilər. Yəni bu, sırf olaraq qurama işdir. Şahin Mirzəyev özünü talış kimi təqdim edirsə və doğrudan da maliyyə problemi varsa, Azərbaycanda dünya talışlarının cəmi 30 faizi yaşayır. Talışların böyük bir qismi İran İslam Respublikasının ərazisində yaşayır. Ermənistanda talış yoxdur axı. Talış İrandadır. Getsin orada təbliğatını aparsın. Demək ki, bu adamın məqsədi talış ideyalarına xidmət etmək deyil".

**Politoloq bildirib ki, Şahin Mirzəyev kimilərin məqsədi Azərbaycana zərbə vurmaqdır:** "Ona görə də ermənilərlə müttəfiqlik edir. Bir daha qeyd edirəm ki, bu, Vigen Sarkisyanın layihəsidir. Azərbaycanın ərazi bütövlüyünə, bizim beynəlxalq aləmdə qazandığımız imicimizə qarşı yönəlmiş bir addımdır. Bəzi adamlar talışlar barəsində müxtəlif fikirlər söyləyirlər. Onlar baxıb görsünlər ki, Azərbaycan cəmiyyətində neçə belə hərəkətlər var. Biz hələ bu məsələləri açıqlamırıq. O adamlar ki, özünü talış zonasının ağsaqqalı bilir, onlar bu cür şəxsləri neytrallaşdırmalıdırlar. Onlar bilsinlər ki, talış adından istifadə edən başqa kimsələr də bu cür hərəkət edə bilərlər. Bu məsələnin Lapşinlə deyil, ermənilərin Bakıya olan axını ilə əlaqəsi var. Bu axına qarşı ermənilər İranın yardımı ilə belə bir addım atıblar. Ancaq bunun Azərbaycanın imicinə heç bir mənfi təsiri olmayacaq, ola da bilməz. Şahin Mirzəyev bu gün orada müxtəlif jurnalistlərlə görüşlər keçirir. Axır vaxtlar ermənilər bilirlər ki, dünya ictimaiyyəti Azərbaycanla hesablaşır. Ona görə də onlar Dağlıq Qarabağ mövzusunda tədbir keçirə bilmirlər. Bilirlər ki, tədbirə hazırlıq dönəmində Azərbaycan dəvət olunan dövlətlərə müraciət edəcək. O dövlətlər də müraciətimizi qəbul edəcəklər. Bu baxımdan, gizlin yollara əl atırlar. Şahin Mirzəyevin jurnalistlərin sualına verdiyi cavablardan da aydın olur ki, o, intellektsiz, savadsız adamdır. Ermənilər də bunu gec-tez anlayacaqlar. Azərbaycanın beynəlxalq aləmdə Dağlıq Qarabağla bağlı imicində dönüş məsələsi ötən ilin noyabr ayında oldu. Hər il ermənilərin keçirdikləri xeyriyyə marafonu bu il fiaskoya uğradı. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə imicinin göstəricisidir. Ermənilərin xırda addımları bizim bu imicimizə heç bir təsir edə bilməyəcək".

❑ Əli RAİS

# İnsanların özəl həyatına müdaxilə edən xanım general fotosunun çəkilməsinə niyə qəzəbləndi...

Kim rədd olsun - jurnalistlər, ya Natəvan Mürvətova?

**Xəbər verdiyimiz kimi, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi Monitorinq Mərkəzinin sabiq rəisi, general-mayor Teymur Quliyev, Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Qurbanov, Əməliyyat-Texniki İdarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, həmin qurumun digər vəzifəli şəxsləri Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başa çatıb. Prosesdən sonra ev dustaqlığında olan Natəvan Mürvətova jurnalistlərin kameralarından yayınmaq üçün məhkəmə binasını ən sonda tərk edib.**

Amma buna baxmayaraq, jurnalistlər MTN-in ilk qadın generalının fotolarını lentə alıb.

Musavat.com-un məhkəmə binası önündə olan müxbiri xəbər verib ki, xanım generalın jurnalistlərin "ittihama münasibətiniz necədir" sualına cavabı kobud olub. Vəkili və bir nəfər şəxslə avtomobilə əyləşən



N.Mürvətova jurnalistlərə "rədd olun" deyərək şəklinin çəkilməməsinə çalışıb.

Bu isə jurnalistlər üçün klassik mənzərə olsa da, bir həqiqəti yenidən xatırlamağa imkan verdi. Xüsusən məhkəmə jurnalistləri üçün bilinən bir reallıqdır. Ölkənin ən qatı cinayətkarları, rüşvətxorları... belə özlərini jurnalist yanında haqlı hesab edirlər. Təsəvvür edin ki, insan qanına əli batmış birisi qələm əhlini "sən mənim həyatımı məhv etdin" deyə ittiham edə bilir. Özündə o "haqqı" tapır. Oğrusu, qulduru da eyni qaydada. Yəni günah bu cinayətləri törədənlərdən daha çox, onu işıqlandıranlarda axtarılır. İndiki halda isə ortada qəribə bir tablo var. İnsanların şəxsi həyatlarına müdaxilə edən, özəl həyatın toxunulmazlıq sərhədini vurub dağıdan adam indi məhkəmə binasının qabağından şəkillərinin çəkilməsinə etiraz edir. Özü də mədəni formada yox, kobud şəkildə, "rədd olun" deyərək. Baxmayaraq ki, zamanında insanların səs yazılarını izləyən, onların şəxsi yazışma və danışıqlarını "can qulağı" ilə dinləmiş insan daha tolerant olmalı, necə deyərlər, empati qurmağı bacarmalıdır.

Xatırladaq ki, N.Mürvətova MTN-in Əməliyyat Texniki İdarəsinin rəisi olub. 2009-cu ildə general-mayor rütbəsi verilib, 2013-cü ildə isə o, "Vətən uğrunda" medalı ilə təltif olunub.

**Onun barəsində ən yaddaqalan şərhin müəllifi isə tanınmış politoloq Ərəstun Oruclu olub. Ərəstun bəy onun barəsində bunları deyib:** "Vaxtilə onunla iş üzrə xeyli ünsiyyətdə olmuşdum. Bütün bu generallar arasında həmin rütbəyə yeganə layiq olan və Azərbaycanın tək general-xanımı idi. Amma çox təəssüf ki, Natəvan xanımın işi "çirkli" iş olmaqla yanaşı, həm də onu son 30 ilin ən miqyaslı informasiya daşıyıcısına çevirmişdi. O, həm də öz işinin yüksək səviyyəli peşəkarı idi. Bu isə həm onun özü, həm də bir çox başqaları üçün təhlükəli idi. Belə də oldu. Əminəm ki, Natəvan xanım dəfələrlə mənim də telefon danışıqlarımın dinlənilməsinə tapşırıqlar verib, amma yenə də deyirəm ki, bu, onun işi idi. Heç nəyə baxmayaraq, arzu edirəm ki, bu xanım həbsxanaya düşməsin. Allah yardımçısı olsun və günahlarını bağışlasın".

**Bu, yaşanmış həyat, göstərilən fəaliyyət növü, bu da süddən çıxmış ağ qaşıq kimi, jurnalistlərə hücum çəkmə... İndi siz deyin: kim rədd olsun?**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 35 (6649) 16 fevral 2017



# “Zəkalar” liseyində general Mehmandarov anıldı

## Hərbi xadimlə bağlı tədbir keçirildi



**Fevralın 15-də Bakının Xətai rayonunda yerləşən 287 saylı “Zəkalar” liseyində Rusiya İmperator ordusunun artilleriya generalı, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Müstəqillər fraksiyasının üzvü, Azərbaycan Xalq Cümhuriyyəti hərb naziri, Azərbaycan SSR hərb xadimi Səməd bəy Mehmandarovla bağlı anım mərasimi keçirilib.**

Tədbirdə məktəbin şagirdləri, Təhsil Nazirliyindən nümayəndələr, Mehmandarovlar ailəsinin üzvləri və tarixçilər iştirak ediblər. Liseydə ilk olaraq məktəblilər tərəfindən hazırlanan səhnəcik təqdim edilib. Şagirdlər vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər. Hazırlanan səhnəcik sayəsində bolşevik hökumətinin Səməd bəy Mehmandarovu Müsavat hökumətinin hərbi naziri işlədiyi binanın - sonralar "Azneft" kimi tanınan o tikilinin ətrafını süpürməyə məcbur etməsi, ailəsi və yaxınlarının başına gətirilən zülmlər haqqında şagirdlərə maarifləndirici məlumatlar verilib.

Şagirdlərin iştirakı ilə hazırlanan və Səməd bəy Mehmandarovun həyatından bəhs edən kiçik səhnəcik tədbir iştirakçıları tərəfindən alqışla qarşılanıb. Səhnəcik sonrası general Mehmandarov haqqında geniş məlumat verilib.

**“Zəkalar” liseyinin direktoru Aygün Əhmədli çıxış edərək, tədbirin əhəmiyyətindən bəhs edib:** “Bu tədbir Mehmandarovun xatirə gününə həsr edilib. O, fevralın 2-də rəhmətə getsə də, biz hər kəsi nəzərə alıb, tədbiri bu gün keçirməyə qərar verdik. Mehmandarovlar ailəsi çox savadlı olublar. Bu soyun tanınmış nümayəndələrindən olan həkim Kərim bəy Mirzə Mustafa bəy oğlu Mehmandarov Sankt-Peterburq Tibb Cərrahlıq Akademiyasının məzunu olaraq, ”Difai" təşkilatının Şuşa şöbəsinə sədrlik edib.

Mehmandarov soyadını daşıyan ən görkəmli şəxsiyyət isə Səməd bəy Mehmandarov olub. Səməd bəy Mehmandarov Rusiya İmperator ordusunun artilleriya generalı, Azərbaycan Xalq Cümhuriyyətinin hərb naziri olub. Qəhrəmanımız 1855-ci il oktyabrın 16-da Lənkəranda anadan olub. Bakıda gimnaziya təhsili alıb. 16 yaşında Peterburqda yerləşən II Konstantinovka artilleriya məktəbinə daxil olub. 1875-ci ilin dekabrında podporuçik rütbəsi alıb və üçüncü dərəcəli “Müqəddəs Stanislav” ordeni ilə təltif edilib. 1890-cı ildə kapitan, 1898-ci ildə podpolkovnik, 1901-ci ildə polkovnik, 1904-cü ildə general-mayor rütbəsi alıb.

Rusiya-Yaponiya müharibəsində böyük rəşadət göstərmiş S.Mehmandarova 1908-ci ildə tam artilleriya generalı rütbəsi verilib. 1917-ci ilin əvvəlində Rusiyanın bütün hərbi ordenləri ilə, eləcə də İngiltərə, Fransa və Rumıniyanın bir neçə hərbi ordenləri ilə təltif edilib. Eyni ilin fevral ayında burjua inqilabı baş verərkən S.Mehmandarov Qafqazda idi. Həmin ilin aprel ayında o, vəzifəsini həmişəlik tərk edib istefaya çıxır. Bir müddət Vladiqafqaz şəhərində yaşadıqdan sonra Azərbaycana gəlir. General Mehmandarovun ölkə tarixinə ən böyük töhfəsi onun Azərbaycan Xalq Cümhuriyyəti hökumətində 1918-ci ilin 25 dekabrından hərbi nazir vəzifəsini tutması və müstəqil Azərbaycanın qısa müddətdə 40 minlik ordusunu yaratması olub".

Tədbirdə daha sonra söz Azərbaycan publisisti, nasir, 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1978), H.Zərdabi adına mükafatın laureatı Şəmistan Nəzirliyə verilib. Generallarımızın hərb tarixçəsinin tədqiqatçısı olan Ş.Nəzirli tədbirlə bağlı lisey rəhbərliyinə təşəkkür edib. Ş.Nəzirli də generalla bağlı danışaraq, onun həyatı haqqında əldə etdiyi məlumatları təbir iştirakçıları ilə bölüşüb.

Tədbir lisey şagirdlərinin ifasında şeirlərlə, səhnəciklərlə davam edib.



# FED-in növbəti qərarı manat üçün təhlükəli ola bilər

## Milli valyutamızı nə gözləyir; Vüqar Bayramov: “Ağ Ev dolların ucuzlaşmasında maraqlı görünür”

**ABŞ Mərkəzi Bankının - Federal Ehtiyat Sisteminin (FED) rəhbəri Janet Yellen ABŞ Senatının Bankçılıq Komitəsində ölkə iqtisadiyyatının ümumi durumu və FED siyasəti haqqında məruzə edib. Amerika iqtisadiyyatının FED-in hədəflərinə doğru irəlilədiyini və yavaş böyümədə olduğunu bildirən Yellen iş dünyasındakı güvənin son dövrdə yüksəldiyini deyib.**

**Yellen Federal Açıq Bazar Komitəsinin (FOMC) əmək bazarında yaxşılaşma və inflyasiyanın 2 faizlik hədəfə doğru irəliləməyə davam etməsini gözlədiyini vurğulayıb:** “Komitə gələcək yığıncaqlarda məşğulluq və inflyasiyanın bu gözləntilər istiqamətində inkişaf edib-etmədiyini qiymətləndirəcək. Əgər məşğulluq və inflyasiya gözləntilərə uyğun inkişaf etsə, gələcək yığıncaqlarda faizdə əlavə düzəlişlər etmək uyğun olar”.

**FED-in faiz artırmaq üçün uzun müddət gözləməsinin risklərinə də diqqəti çəkən Yellen fikrini belə izah edib:** “Daha əvvəl dediyim kimi, yumşaq pul siyasətinin sərtləşdirilməsini çox gözləmək rasional olmaz, çünki ehtimalla, FOMC faizlərin sürətli artırmasını tələb edir. Bu, maliyyə bazarlarının pozulması və iqtisadiyyatın çöküşə yuvarlanması riskinə yol aça bilər”.

FED başçısı bu səbəblə iqtisadiyyatı tarazlıqda tutacaq pilləli faiz artımlarına davam edilməsini dəstəklədiyini bildirib.

FED-in bir çox rəhbər üzvləri də faizin artırılmasını dəstəkləyirlər. FED fevralın 1-də keçirilən son iclasında uçot dərəcəsini dəyişmədi. Uçot dərəcəsini 0.5-0.75 səviyyəsində saxladı. Bu ilin yanvarında FED rəhbəri Janet Yellen bildirmişdi ki, 2019-cu ilin sonunadək uçot dərəcəsini bir neçə dəfə artırmaq planlaşdırılır.

Bəs görəsən, FED rəhbərinin bu çıxışından sonra dünya bazarında möhkəmlənən dollar yenidə dirçəlməyə başlayan manatın məzənnəsinə necə təsir göstərəcək?

Bu proseslər fonunda manat kəskin devalvasiyaya uğraya bilərmi?

**“Yeni Müsavat”ın suallarını cavablandıran iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, FED-in son açıqlaması ABŞ-da dolların məzənnəsi ilə bağlı iki fərqli yanaşmanın olduğunu bir daha sübut edir:** “Ağ Ev dolların ucuzlaşmasında maraqlı görünür. Bu da onunla bağlıdır ki, Ağ Ev dolları ucuzlaşdırmaqla daha çox ixrac qabiliyyəti əldə etməyə və idxalı azaltmağa çalışır. Ancaq FED Birləşmiş Ştatlarda məzənnə siyasətinə məsul olan qurumdur. ABŞ-ın Mərkəzi Bankı sayılan FED müstəqil olaraq məzənnə siyasəti ilə məşğuldur. Ona görə də FED-in mövqeyi çox önəmlidir. Bəzi hallara Ağ Evin FED-ə təsir imkanlarından danışılır. Amma ona baxmayaraq FED hər zaman müstəqilliyini qoruyub saxlamağa və müstəqil qərar qəbul etməyə çalışan bir qurumdur. O baxımdan, FED-in son açıqlaması da ondan xəbər verir ki, bu qurum dolların möhkəmlənməsində maraqlıdır. FED çalışır ki, dolların möhkəmlənməsi prosesini davam etdirsin. Dünya bazarında dolların ucuzlaşması ilə bağlı hazırda müəyyən fikirlər var. Xüsusən burada Trampın rolunun olduğu vurğulanır. Yeni prezidentin komandasının açıqlamalarından sonra dünya bazarında dolların ucuzlaşacağı proqnozlaşdırılırdı. Lakin indiki halda bu gözlənti yoxdur. Dollar mövcud məzənnəsini qoruyub saxlayacaq, hətta bir çox valyutalara qarşı dəyər qazana bilər. Bu ehtimallar daha yüksəkdir”.

**Möhkəmlənməkdə olan Azərbaycan manatının FED-in son açıqlamasından sonrakı taleyinə gəlincə, Vüqar Bayramov bildirdi ki, FED-in qərarının Azərbaycan bazarına psixoloji təsiri var, birbaşa iqtisadi təsiri yoxdur:** “Manatın dollara qarşı rəsmi məzənnəsinin 1.92-dən 1.73 -ə qədər azalması dövrünə diqqət yetirsək, son bir həftədə manat-dollar məzənnəsində sabitlik müşahidə olunur. Manatın əvvəlki bir həftədə kəskin möhkəmlənməsi müşahidə olunurdusa, ötən həftənin ikinci yarısından başlayaraq daha az faizlə məzənnə dəyişilir. Manatın Mərkəzi Bank tərəfindən qorunmasına baxmayaraq, banklarda və valyutadəyişmə məntəqələrində dolların son günlər dəyər qazanmasının şahidi oluruq. Bu da dollara tələbin artması ilə bağlıdır. Manatın kəskin möhkəmlənməsindən sonda vətəndaşların bir qismi əllərindəki yığım formasında saxladıqları dolları manata çevirdilər və bazarda dollar təklifi artdı. Lakin ötən həftənin ikinci yarısından başlayaraq bazarda dollar təklifi aspektindən stabillik müşahidə olunur. Mərkəzi Bankın ötən dəfəki hərracda manatın rəsmi məzənnəsində etdiyi çox cüzi dəyişikliyə baxmayaraq, valyuta bazarında stabillik müşahidə edilir. Bunun nə qədər davam edəcəyi bəlli deyil. Xüsusən manatın 1.92 məzənnəsindən 1.73-ə qədər möhkəmlənməsindən sonra bunun proqnozlaşdırılması bir qədər çətindir. Kommersiya bankları da bu məsələdə çətinlik çəkirlər”.

**İqtisadçı onu da qeyd etdi ki, hazırkı durumdan daha çox banklar qazanır və maliyyə durumlarını yaxşılaşdırmağa çalışırlar:** “Kommersiya banklarının alış və satış kursları arasında kəskin fərq var. Bu da nəticə etibarilə kommersiya banklarının prosesdən daha çox gəlir əldə etməsinə gətirib çıxarıb. Banklar çalışırlar ki, daha çox gəlir əldə etsinlər. Bu da onların məzənnəyə təsir imkanlarını genişləndirir. Xüsusən də Mərkəzi Bankın rəsmi kursu ilə bankların valyuta kursu arasındakı marja ləğv olunduqdan sonra alış və satış kursu arasındakı fərqin artması, bankların daha çox gəlir əldə etməsi, vətəndaşlardan dolların nisbətən ucuz alınıb, daha baha satılmasına gətirib çıxarıb”.

**Vüqar Bayramovun fikrincə, növbəti dövrdə Mərkəzi Bank birmənalı şəkildə bazarda stabilliyi təmin etməyə çalışmalıdır:** “Çünki bazar üçün, iş adamları üçün manatın məzənnəsinin stabil olması daha vacibdir. Stabil məzənnə investisiya qoyuluşlarını artıra bilər. Həm də dollarlaşma prosesinin başlanması baxımından vacibdir. Məzənnənin necə dəyişəcəyini indidən proqnozlaşdırmaq çətindir. Bu, hərraca çıxarılan valyutanın həcmindən asılı olacaq. Çünki hərraca çıxarılan valyutanın həcmi də milli valyutanın məzənnəsinin müəyyənləşdirilməsinə birmənalı şəkildə təsir göstərir. Mart ayından həm dollara tələbatın olması, həm idxalın artması, həm də maliyyə ilinin son ayı olması baxımından bu valyutaya tələbi artırdı. Rusiyada bu stabillik demək olar ki, təmin olunub. Son bir ildə rublun dollara qarşı məzənnəsi 1 dollar 60 rubl ətrafında dəyişir. Bu da investorlara mesaj baxımından çox vacibdir. Bu mənada Mərkəzi Bank və hökumət növbəti dövrdə, xüsusən də qarşıdakı aylarda stabil məzənnənin əldə edilməsinə cəhd etməlidir. Bu maliyyə bazarları üçün çox önəmlidir”.

**İqtisadçı ekspert Əkrəm Həsənov isə vurğuladı ki, manatı hər bir halda yaxın aylarda kəskin devalvasiya gözləyir:** “Dollar 2 manatı vurub keçəcək. FED-in faiz dərəcəsini yaxın vaxtlarda artırması da çox realdır və o manata əlavə zərbə də vuracaq. Amma FED-siz də manatın vəziyyəti ürəkaçan deyil”.

Qeyd edək ki, FED sonuncu dəfə, ötən il dekabrın 14-də uçot dərəcəsini artırmışdı. Bundan əvvəl, 2015-ci il dekabrın 16-da tənzimləyici uçot dərəcəsinin baza faiz dərəcəsinin illik 0-0.25 faiz artırılması barədə qərar qəbul etmişdi.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 35 (6649) 16 fevral 2017

**Politoloq Zərdüşt Əlizadə lent.az saytına müsahibəsində Azərbaycanın mərhum xalq şairləri Xəlil Rza Ulutürkü və Bəxtiyar Vahabzadəni tənqid edib. O bildirib ki, Bəxtiyar Vahabzadə türkçülük sevgisi ilə yaşamayıb, eşqdən, məhəbbətdən şeirlər yazıb, özü üçün, ailəsi üçün yaşayıb: "Bəxtiyar hələ cavan şair olanda görkəmli ədəbi tənqidçi kimi mənim atam Məmməd Mübariz Əlizadənin yanına gəlirdi. Biz Bəxtiyar Vahabzadə ilə 40 il qonşu olmuşuq. Xalq üçün yaşayan adam Bəxtiyar Vahabzadə kimi təminatlı yaşamazdı. Sadəcə, yaxşı yaşamaq üçün xalqa turançılıqdan, türkçülükdən şeirlər deyirdi. Bu da onun yaxşı çörək yeməyinə kömək eləyirdi. Xalqın hansısa sarı simini dınqıldadıb yaxşı yaşayan şairlərimiz, yazıçılarımız azmı olub?"**

# Bəxtiyar Vahabzadənin kürəkənindən Zərdüşt Əlizadəyə sərt cavab

## **Ziya Əsədov:** "O, türkçülük, azərbaycançılıq ideyasının düşməni olan atasından danışsın"

**Xəlil Rza Ulutürk barəsində isə söyləyib ki, Xəlil Rza Ulutürk milli ədavəti qızışdıran bir adam olub:** "Heç vaxt fikirləşmirdi ki, bu xalqın sonu nə olacaq? Çıxıb mitinqlərdə bar-bar bağırırdı ki, biz ermənilərin tüpürcəklə boğmalıyıq. Hansı tüpürcəklə? Hansı millətin tüpürcəyi ilə erməniləri qovmaq olardı? Sən görmürsən ki, KQB erməni və Azərbaycan xalqlarını vuruşdurur ki, ortaya bir qarmaq salsın? Xəlil Rza Ulutürk isə KQB-yə xidmət edib qışqırır ki, ermənilərə lənət olsun".

**Z.Əlizadənin bu fikirlərinə "Yeni Müsavat"a açıqlamasında Bəxtiyar Vahabzadənin kürəkəni, 5 saylı Kliniki Xəstəxananın baş həkimi Ziya Əsədov sərt cavab verib. O bildirib ki, Zərdüşt Əlizadə bir politoloq kimi böyük yanlışlıqlara yol verir:** "Zərdüşt Əlizadənin söylədiyi fikirləri oxudum, çox təəssüf hissi ilə qeyd edirəm ki, bu adam Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün adını ağzına almaqdansa, türk dünyasına nifrətinin səbəbini desin. Zərdüşt Əlizadə türkçülük, azərbaycançılıq ideyasının düşməni olan atasından danışsın. Sovet hökuməti zamanında rus imperiyasının, İran dövləti ilə birlikdə gizli fəaliyyəti nəticəsində yeni nəsil yaranmışdı. Bu nəsli "Bakinest" adlandırırdılar. Bu qrupa farslar, ermənilər, bəzi rusdilli azərbaycanlılar, kürdlər daxil idi. Həmin adamlar hər zaman türkçülüyün əleyhinə olublar. İndi də bu kimi əməllərindən əl çəkmirlər. MHP sədri Dövlət Bağçalı bu yaxınlarda çıxışı zamanı bildirdi ki, necə Türkiyənin Məhməd Akifi varsa, Azərbaycanın da Bəxtiyar Vahabzadəsi var. Təəssüf ki, bəzi televiziyalar da Zərdüşt Əlizadənin yolunu tutublar. Belə ki, Bəxtiyar Vahabzadənin 90 illik yubileyi ilə əlaqədar hazırlanan verilişlərin çoxunda onu eşq, təbiət şairi kimi qələmə verirlər. Onun millətçiliyindən, dövlətə, dilimizə, dinimizə olan münasibətindən danışmırlar. Bunu arxa plana çəkirlər. Zərdüşt Əlizadə də bütün bunları görərək, bir qədər də irəli gedir. Nə zaman Bəxtiyar Vahabzadə eşq şairi olub? O, ömrü boyu fəlsəfi şair adlanıb.



**"Jirinoviskini danışdıranlar Zərdüşt Əlizadəyə də tapşırıq veriblər"**

Zərdüşt Əlizadənin atasından xəbəri varmı? Atası məhkəmədə Elçibəyin üzünə duran insanlardan biridir. Ona görə də məsləhət bilirəm ki, kökü kəsilməkdə olan Zərdüşt, Araz Əlizadələrə Azərbaycan xalqı fikir verməsin. Onsuz da bizim qeyrətli, savadlı rəhbərlərimiz, xalqımız belə insanları qəbul etmirlər".

**Z. Əsədov bildirib ki, Jirinovskini Moskvada danışdıranlar Azərbaycanda da Zərdüşt Əlizadə kimi şəxslərə müvafiq tapşırıqlar veriblər:**

"Jirinovski tələb edir ki, SSRİ-ni bərpa etmək lazımdır. Onu qışqırdan adam, bunlara da tapşırıq verir ki, siz də bu istiqamətdə danışın. Bunların arzusu sovet imperiyasını bərpa etməkdir. Deyir ki, rus qoşunları Azərbaycandan çıxmamalı idi. Azərbaycanın müstəqilliyinin ilk saniyəsində rus qoşunları Azərbaycandan çıxıb, rus valyutası ölkədə ləğv olunub. Böyük türk, Mustafa Kamal Atatürk yaxşı deyib ki, "Türkün, türkdən başqa dostu yoxdur". Zərdüşt Əlizadə də türk deyil. Ermənidir, farsdır, hər nədirsə bilmirəm, ancaq türk deyil. Zərdüşt Əlizadə Bəxtiyar Vahabzadəni istiqlal şairi kimi qəbul edə bilmədiyi üçün ona bu cür yanaşır. Bəxtiyar Vahabzadəni ona görə türk dünyasının ən önəmli şairlərindən biri hesab edirlər ki, o, türkçülüyü hər zaman qoruyub. Çox sevindirici haldır ki, saxtakar "bakinest"lər artıq tükənirlər. Zərdüşt Əlizadə və onun kimilərini qıcıqlandıran Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması, "Latın dili" şeiri, "Göytürklər" kimi fəlsəfi əsərləridir. Çünki orada həm ruslara, həm də farslara sataşılır. Zərdüşt Əlizadə isə həm rusun, həm də farsın dili ilə danışır. Əbülfəz Elçibəyə kürd deyirsə, öz türklüyünü boynuna alırmı? Niyə deyir ki, azərbaycanlıyam? Deyir ki, Bəxtiyar Vahabzadə türkçülük sevgisi ilə yaşamayıb. Ona demək istəyirəm ki, məhz Bəxtiyar Vahabzadənin böyük xidməti nəticəsində indi Azərbaycanda yaşayan bütün türklər özlərinin türk olduqlarını anlayırlar. Bəxtiyar Vahabzadənin türk sevgisi olmasaydı, onun otağında, başının üzərində Mustafa Kamal Atatürkün portreti olmazdı. Bundan əlavə, onun kabinetində bütün türk dövlətlərinin bayrağı var idi. Zərdüşt Əlizadə buna görə də Bəxtiyar Vahabzadəni istəmir. Deyir ki, Əbülfəz Elçibəy ölmüş türk dünyasının siyasi Şeyx Nəsrullahı idi. Bil ki, türk dünyası heç zaman ölməyib. Sən özün ölü kimisən. Sən türkəm deyə bilərsənmi? Türklərin yer üzünün yarısını işğal etdikləri zamanı, tarixi, deyəsən, qəbul edə bilmirsən. Bu gün də Türkiyənin, Azərbaycanın müstəqilliyini gözün götürmür".

❑ **Əli RAİS**

# Ermənistanda mart qırğını təkrarlana bilər

## Hakim partiya seçkiyə müdafiə nazirinin rəhbərliyi ilə gedir; **ekspert:** "Sərkisyan öz hakimiyyətini qorumaq üçün əlindən gələni edəcək"

**Aprel ayında keçiriləcəcək parlament seçkiləri ərəfəsində Ermənistanda siyasi ehtiraslar qızışmaqdadır. İşğalçı ölkənin prezidentinin siyasətinə qarşı çıxan müxaliflər artıq Serj Sərkisyanın prezident seçilərkən tökdüyü qanlara görə cavab verməli olduğunu bəyan edir, 2008-ci ilin 1 mart hadisələrini xatırladırlar.**

Ekspertlər bütün bunları nəzərə alaraq yaxın aylarda işğalçı ölkədə fors-major hadisələrin baş verə biləcəyini təxmin edirlər. Hətta bəzi erməni müşahidəçilər də etiraf edirlər ki, bu seçkilər Sərkisyan hakimiyyətinin sonunu gətirə bilər. Müxalifətin 1 mart hadisələrinin yenidən araşdırılması təşəbbüslərinə cavab olaraq S.Sərkisyan Ermənistanın hakim Respublikaçılar Partiyasının parlament seçkilərindəki proporsional seçki siyahısına müdafiə naziri Viqen Sarkisyanın başçılıq etməsinə qərar verib. Şübhəsiz ki, ordu rəhbərinin deputat siyahısına başçılıq etməsi xalqa, müxaliflərə açıq təhdiddir. 9 il əvvəl, martın 1-də, prezident seçkilərinin nəticələrinə etiraz edən kütləni məhz ordu güllələbaran etmişdi. Bununla Sərkisyan xalqın yaddaşını "təzələmək" istəyir. Partiyanın mətbuat katibi, parlamentin vitse-spikeri Eduard Şarmazanov isə siyahıya nədən müdafiə nazirinin rəhbərlik etməsinə aydınlıq gətirmiyib. Digər qəribəliklərdən biri də budur ki, Ermənistan prezidenti Serj Sərkisyan və baş nazir Karen Karapetyan hakim partiyanın proporsional seçki siyahısına daxil edilməyib. Düzdür, Sərkisyanın "özü belə istəyib". Ancaq baş nazir Karapetyan son beş il ərzində Ermənistanda yaşamadığı üçün onun 2 aprel seçkilərinə qatılması mümkün olmayıb. Bütün bunlar isə kifayət qədər diqqət çəkən faktlardır.



**Politoloq Arzu Nağıyeva görə, erməni müdafiə nazirinin siyahının birincisi olması təsadüfi deyil:** "Düşünürəm ki, burada əsas məsələ məhz ermənilərin təhlükəsizlik məsələsini ön plana çəkməkdə maraqlı olduqlarını göstərməkdir. Yəni "Qarabağ kartı" yenə də öndədir". **Ekspertin fikrincə, aprelin 2-də keçiriləcəyi nəzərdə tutulan seçkilər Sərkisyanı heç də qane etmir:** "Belə ki, bir neçə blok və partiyaların birləşməsi və eyni platformadan çıxışı nəzərdə tutulur. Maraqlı məqamlardan biri keçmiş müdafiə naziri Seyran Ohanyan, sabiq XİN başçısı, "Birlik" Partiyasının rəhbəri Vardan Oskanyan və "İrs" Partiyasının rəhbəri Raffi Ovanesyanın yaratdıqları "Ohanyan-Raffi-Oskanyan" birliyidir. Bu birlikdə qondarma "Artsax" məsələsinə də mühüm yer verilir və bu haqda Ohanyan bəyanat yayıb. Ola bilər ki, bu birlik üzdə Sərkisyana qarşı olsun, lakin bu, ciddi görünmür. Bundan başqa, Ermənistanın suverenliyini və təhlükəsizliyini proqram kimi qəbul edən başqa iki partiya və bir hərəkat da blok yaradır. Yəni bu gün görünən tərəf odur ki, Sərkisyana qarşı müxtəlif bloklar yaradılır. Hazırkı vəziyyətdə isə Sərkisyan öz hakimiyyətini qorumaq üçün əlindən gələni edəcək və cəbhədə, təmas xəttində atəşkəsin pozulması da məhz buna yönəlib".

**Son günlər S.Sərkisyan və Azərbaycana qarşı cinayətlər törətmiş digər şəxslərin cəzalandırılması barədə müxtəlif fikirlər səslənir, qanunvericilik bazasının yaradılması istiqamətində addımlar atılır. "Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması" haqqında beynəlxalq səviyyəli bir qanun layihəsinin məhz hakimiyyətinin ağır dönəmini yaşayan S.Sərkisyan və başının dəstəsi üçün hazırlandığını iddia etmək olmaz. Amma Xocalı qatilləri də bu qanunun müddəalarına uyğun şəkildə cəzasını almalıdır. A.Nağıyev bu barədə danışarkən bildirdi ki, Aleksandar Lapşinin Azərbaycana ekstradisiyasından sonra ümumiyyətlə, ölkə ərazisində cinayət törədərək müxtəlif dövlətlərin ərazisində gizlənən və ya beynəlxalq qanunlara məhəl qoymayaraq yaşayan, müxtəlif dövlətlərin vətəndaşları olan şəxslər artıq narahatçılıq keçirməyə bilməzlər:** "Buna bariz misal olaraq təpədən-dırnağa qədər qan içində olan erməni general Ter-Tadevosyanı misal göstərmək olar. Bu yaxınlarda onun Belarusda keçiriləcək dövlət tədbirindən imtina etməsi və bununla bağlı yaydığı bəyanat buna sübutdur. 1988-ci ildən indiyədək Qarabağ münaqişəsi ilə bağlı və digər cinayətlərdə, Xocalı soyqırımında, digər hərbi cinayətlərdə iştirakçı olan 39 nəfər barəsində Azərbaycan Cinayət Məcəlləsinin ən ağır maddələri ilə məhkəmələr tərəfindən həbs-qətimkan tədbiri seçilib, onlar axtarışa veriliblər. Bunların arasında 366 saylı alayın 18 nəfər hərbçiləri ilə yanaşı, Xankəndi və Əsgəran polis idarəsinin əməkdaşları və digərləri də var. Bunlar hazırda Rusiyada və digər dövlətlərdə yaşayırlar. Bundan əlavə, hazırda Ermənistanda yaşayan, əslində Azərbaycan vətəndaşı olan ermənilər də həddən artıq çoxdur. Acınacaqlısı odur ki, onlar müxtəlif dövlətlər sərbəst gedib-gəlirlər, təəssüf ki, İnterpolun axtarışında olmalarına baxmayaraq, saxlanılaraq Azərbaycana təhvil vermirlər, yəni indiyə qədər belə hal olmayıb. Düşünürəm ki, bu siyahıya törədikləri və çoxsaylı şahid ifadələri ilə sübuta yetirilməsi mümkün olan Ermənistanın hazırkı prezidenti Serj Sərkisyan və keçmiş dövlət başçısı Robert Köçəryanın adları da əlavə edilməlidir. Bu baxımdan, "Beynəlxalq cinayətlərin qarşısının alınması və onları törədən şəxslərin cəzalandırılması haqqında" qanun layihəsinin hazırlanması çox mühüm bir addım kimi dəyəndirilməlidir. Çünki bu qanundan, beynəlxalq konvensiyalar və dövlətlərarası ikitərəfli müqavilələrdən istifadə edilməklə həmin cinayətkarların Azərbaycana ekstradisiyaları mümkün ola bilər".

❑ **E.PAŞASOY**



## ABŞ-la yaxınlığa görə vurulan nazirlər…

**Qabil Hüseynli:** "Amerikanın Fərhad Əliyevi müdafiə etməsi ilə bağlı fikirlər tamamilə uydurma idi"

**Nəqliyyat naziri Ziya Məmmədovun vəzifəsindən azad olunması bir çox məsələləri gündəmə gətirib. İndiyə qədər nazir postunu itirən şəxslərin vəzifə talelərində "ABŞ-la yaxınlıq" axtarılmağa başlanıb.**

Belə ki, indiyə qədər bu və ya digər şəkildə nazir vəzifəsini itirən bəzi sabiqlərin ABŞ-la əlaqələri olduğuna görə postları ilə vidalaşmaq məcburiyyətində qaldıqları barədə iddialar səslənir. Belə fikirlərdə bir çox sabiq nazirlərin adı hallansa da, ən çox adları gündəm olan 2005-ci ilin oktyabrında vəzifələrindən uzaqlaşdırılan iqtisadi inkişaf naziri Fərhad Əliyev (2013-cü ildə azadlığa çıxıb) və Z.Məmmədovdur. Hər iki sabiqin postlarını itirməsində ABŞ faktorunun olduğu qeyd olunur. Məhz 12 il öncə F.Əliyevin ABŞ-ın dəstəyi ilə hakimiyyətə gəlmək iddiasına düşdüyü deyilir.

ABŞ-ın yeni prezidenti Donald Trampın Məmmədovlar ailəsi ilə yaxın olması, hətta onun prezident seçildiyi gün Məmmədovlar ailəsinin Bakıda böyük qonaqlıq təşkil etdikləri iddia olunur.

**Politoloq Qabil Hüseynli** Amerika faktorunun adlarını çəkdiyimiz şəxslərin vəzifələrini itirmələrinə səbəb olduğunu zənn etmir: "Ölkə uzun müddətdir islahatlar abı-havasına köklənib. Struktur islahatlarının həyata keçirilməsi gündəmə gətirilib. Bunların bəziləri də həyata keçməkdədir. Nəqliyyat Nazirliyinin digər nazirliyə birləşdirilməsini bu islahatların tərkib hissəsi kimi qəbul edirəm. Çünki bu nazirlik hansı funksiyanı yerinə yetirirdi? Faktiki olaraq passiv bir qurum idi. Bu baxımdan, Nəqliyyat Nazirliyinin ləğvinin gecikmiş bir addım olduğunu düşünürəm. Ən azı iki ilə yaxındır ki, nəqliyyat nazirinin funksiyaları ya əlindən alınıb, ya da həmin funksiyalar başqa idarəetmə orqanlarının səlahiyyətinə keçib. Faktiki bu nazirliyin yollarda sürücüləri tutmaq, cərimələmək və taksilərə lisenziya verməkdən başqa səlahiyyəti yox idi. Hesab edirəm ki, Nəqliyyat Nazirliyinin ləğvi struktur islahatlarında özünü doğruldan hadisələrdən biri olacaq. Bunu Amerika və hələ özünə gəlməyən Trampla əlaqələndirmək sadəlövhlük olardı. Doğrudur, indiyə qədər bir çox nazirlər vəzifələrindən uzaqlaşdırılıblar. Burada kənar təsirləri axtarmaq doğru deyil. Ölkə rəhbərinin iradəsi sayəsində bunlar həyata keçirilib. Öz vəzifələrinin öhdəsindən gələ bilməyənlər postları ilə vidalaşırlar. 2005-ci ildə baş verən hadisələr çox mürəkkəb olaylar idi. Fərhad Əliyevin vəzifəsindən kənarlaşdırılmasına, onun qardaşının bu aqibəti yaşamasına ölkədəki mürəkkəb vəziyyətin səbəb olduğunu söyləmək mümkündür. Çünki həmin dövrdə Rəsul Quliyevin də ölkəyə gələcəyi barədə xəbərlər yayılmışdı. Müxalifət də bir-birinin ardınca mitinqlər təyin edirdi. Ölkədaxili abı-hava gərgin idi. O zaman Fərhad Əliyev ölkədə reformator imicində ad çıxarmağa çalışırdı. Bu barədə yazılar gedirdi. Onun "hamı yerli mal alsın, xeyri vətənə qalsın" şüarları mətbuat səhifələrində tez-tez səsləndirilirdi. Müxalifət mətbuatındakı yozmalarla bu qənaətə gəlmək olurdu ki, Qərb dairələri, xüsusilə Amerikada Fərhad Əliyevi gələcəkdə ölkədə islahatlar keçirəcək səlahiyyətli şəxs qismində görürlər və bu səbəbdən də onu müdafiə edirlər. Amma baş verənlər göstərdi ki, Amerikanın onu müdafiə etməsi ilə bağlı fikirlər tamamilə uydurma imiş. O bir neçə il vəzifədə çalışsa da, hər hansı bir islahat keçirməsi barədə fikirlər kimsənin dilindən səslənmirdi. Əksinə, o, vəzifəsindən kənarlaşdırıldıqdan sonra məlum oldu ki, nazirlikdə ciddi korrupsiya halları var imiş. Araşdırılarkən xeyli yeyinti faktları üzə çıxdı. İndi də xalqın qanını soran, rüşvətxorluqla məşğul olan məmurlar az deyil. Onlar barəsində tədbir görülməsinə ciddi ehtiyac var. Bir şeyi unutmaq olmaz ki, nazirlər yalnız vəzifə səlahiyyətlərini aşmağa, vəzifəsindən sui-istifadə etməyə, onlara göstərilmiş etimadı doğrultmadıqlarına görə vəzifədən kənarlaşdırılıblar".

❑ Cavanşir ABBASLI

**Nəqliyyat Nazirliyinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilməsindən sonra Ziya Məmmədov işsiz qalıb. O, "Yeni Müsavat"a açıqlamasında deyib ki, daha nazir deyil, sıravi vətəndaşdı. Z.Məmmədovun nazir postundan kənarlaşdırılıb daha yüksək vəzifəyə gətiriləcəyi haqda deyilənlər isə hələlik öz təsdiqini tapmır. Amma hakimiyyətin indiyədək olan yanaşmasından çıxış edərək demək olar ki, Z.Məmmədov işsiz qalmayacaq. Deyilənlərə görə, o ya prezidentin müşaviri təyin ediləcək, ya da xarici ölkələrdən birinə səfir göndəriləcək.**

# Arif Əsgərovun həbsi reallaşır - ölkədən qaça bilər

Sabiq nazir müavini hazırda müdafiəsiz və himayəçisiz qalıb; iki il öncə istintaqdan yayınmaq üçün Nəqliyyat Nazirliyində formal vəzifə tutan Əsgərov hazırda bütün immunitetini itirmiş durumdadır; canını qurtarmaq üçün onun iki yolu var...



Z.Məmmədovun nazirliyinin ləğvi onun müavinlərini də işsiz qoyub. Üstəlik, həm də sabiq nazir müavinləri himayəsiz, müdafiəsiz qalıblar.

Ən qəliz vəziyyətə isə heç şübhəsiz Arif Əsgərov üzləşib. 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışmış A.Əsgərovun adı böyük qalmaqallarda hallanırdı. Hətta 2013-cü ildə bu qalmaqallar üzündən onun həbs ediləcəyi də gözlənilirdi. Həmin il QSC-də külli miqdarda, daha dəqiq desək, 48 milyonluq yeyinti faktı aşkarlandı. Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları QSC-nin marketinq şöbəsinin rəisi Arif Əsgərovun baldızı oğlu Rahib Hüseynovu həbs etdilər. R.Hüseynov 48 milyon manat dövlət əmlakını mənimsəməkdə ittiham olunurdu. Az sonra məlum oldu ki, R.Hüseynovu qabağa verib həbs etdirən də A.Əsgərovun özü olub. O bu yolla oğlu, "Liman Group" şirkətinin rəhbəri Elnar Əsgərovu məsuliyyətdən kənarda saxlamağı bacardı. Məsələ mətbuatda hallanmağa başlayan kimi A.Əsgərov oğlunu xaricə göndərdi. Beləliklə, əsas fiqur hadisələrdən kənarda qala bildi. Əvəzində Rahib Hüseynov və qardaşı etmədikləri qanunsuzluqlara görə həbsdə qaldılar. İş üzrə 50 sahibkar zərər çəkib və onlar prezidentə müraciət ediblər. Faktla bağlı məlumatlarda ictimaiyyətin diqqətini daha çox cəlb edən məqamlardan biri isə maliyyə fırıldağında bilavasitə Arif Əsgərovun oğlu Elnar Əsgərovun da iştirak etməsi haqda iddialar idi. Qeyd edək ki, o dövrdə məsələ ilə bağlı çox müzakirələr aparıldı, mətbuatda, həmçinin "Yeni Müsavat"da silsilə yazılar dərc olundu. Arif Əsgərovun və oğlunun cinayət məsuliyyətinə cəlb edilməməsi o dövrlərdə hər kəsi maraqlandıran suallardan idi. Arif Əsgərovun Ziya Məmmədovla yaxın münasibətlərinin olduğu da bilinirdi.

İllərlə uzanan istintaqdan yayınmağı bacaran A.Əsgərov 2015-ci ildə ölkə prezidentinin fərmanı ilə tutduğu vəzifədən azad edildi. Başqa bir fərmanla o, nəqliyyat nazirinin müavini təyin edildi. Bununla da A.Əsgərov 2 il öncə mümkün həbsdən canını birtəhər qurtara bildi.

Bəs indi onun aqibəti necə olacaq?

Özünün ən güclü himayəçisini itirmiş, vəzifədən məhrum olmuş Arif Əsgərovun aqibəti yaxşı görünmür. Kifayət qədər pulu, malı-mülkü olan bu adam istintaqçıların və hakimiyyətdəki digər qruplaşma liderlərinin diqqətini çəkməyə bilməz. Onu həbs etmək üçün kifayət qədər əsas da var. Ata-oğul Əsgərovların ayağında 48 milyon oğurluq var. Təkcə bu faktı qurdalamaqla A.Əsgərovu qandallamaq mümkündür.

Bu arada, Rahib Hüseynovun həbs edildiyi cinayət işində "Azərbaycan Dövlət Dəmir Yolları" QSC-nin sabiq sədri Arif Əsgərovun köməkçisi və həmyerlisi İlqar Məmmədov və "DəmirBank" ASC-nin Mərkəz filialının müdiri Müşfiq Tükanovun da adı çəkilirdi. Müşfiq Tükanovdan əvvəl həmin filialın müdiri Arif Əsgərovun köməkçisi İlqar Məmmədov olub. İlqar Məmmədov A.Əsgərova köməkçi təyin olunandan sonra onu Müşfiq Tükanov əvəzləmişdi. Onun Mərkəz filialındakı xidməti otağında dəmir yolunda qaranlıq əməliyyatların ssenarisi yazılıb. Onları da Müşfiq Tükanovla tanış edən İlqar Məmmədov olub. Onun Mərkəzi Bankda işləyən qayınatasının vasitəçiliyi ilə "DəmirBank"ın Mərkəz filialı şübhəli maliyyə əməliyyatlarının əsas mərkəzlərindən birinə çevrilib. Yeyinti faktının əsas iştirakçıları kimi göstərilən Arif Əsgərov və oğlu Elnar Əsgərov isə bu gün rahat şəkildə azadlıqda gəzirlər.

Hazırda Arif Əsgərovun iki yolu var: ya mal varlığını dövr edib, azadlığını satın almalıdı, ya da ölkədən tez bir zamanda qaçmalıdır ki, istintaq onu qandallaya bilməsin. Sabiq dəmir yolu şefi hansı yolu seçəcək? Ümumiyyətlə, ona seçim haqqı tanınacaqmı? Yaxın zamanlarda bilinəcək.

Mövzunu davam etdirəcəyik.

❑ E.HÜSEYNOV

## Bir sərəncamın doğurduğu rezonans

Qüdrətli nazirlə və nazirliklə bağlı qərar siyasi böhran əlamətidir, yoxsa...

**Müxalifət düşərgəsindən bir qrup adam sosial şəbəkələrdə Ziya Məmmədovun nazir vəzifəsindən çıxarılmasını hakimiyyətdaxili qarşıdurmanın nəticəsi kimi şərh edir. Məsələn, iddia olunur ki, nazirin işdən çıxarılması hakimiyyətin sonunun yaxınlaşmasıdır. Belə şərhlərin, proqnozların əsası varmı?**




**ADP sədrinin müavini Taliyət Əliyev** bildirdi ki, Ziya Məmmədovun nazir vəzifəsindən kənarlaşdırılması və Nəqliyyat Nazirliyinin başqa bir nazirliyə birləşdirilməsini hakimiyyətdaxili mübarizənin nəticəsi hesab etmək, daha uzağa gedən nəticələr çıxarıb bu hadisəni hakimiyyətin çöküşünü yaxınlaşdıran hadisə saymaq yanlışdır. Burada hansısa daxili qarşıdurma amili axtarmaq doğru nəticəyə gəlməyə imkan verməz. Kimlərsə bu hadisədən "hakimiyyətin axırı gəldi" kimi nəticələr çıxarıb ümidlənibsə, boşuna ümidlənib. Çünki Nəqliyyat Nazirliyinin başqa bir nazirliklə birləşdirilməsinin sadə səbəbi var: "Azərbaycanda neft bumu dövründə eyni təmayüllü bir çox nazirliklər, dövlət komitələri və digər qurumlar yaradılmışdı. Həmin dövrdə bu tipli qurumların dövlət büdcəsi hesabına saxlanılması elə də problem deyildi. Dünya bazarında neftin qiymətinin kəskin şəkildə ucuzlaşması Azərbaycanın gəlirlərini kəskin şəkildə azaltdı. Bu da təbii olaraq Azərbaycanın dövlət büdcəsinə mənfi təsirini göstərdi və nəticə etibarı ilə bir çox nazirliklərin ləğvi məsələsi aktuallaşdı. Bildiyiniz kimi, bundan qabaq da nazirlik səviyyəsində olan Torpaq və Xəritəçəkmə Komitəsi ləğv olunaraq səlahiyyətləri digər qurumlar arasında paylanmışdı. Ötən illərdə Nəqliyyat Nazirliyinin də bir çox səlahiyyətləri əlindən alınıb başqa qurumlara verilmişdi. Bu nazirliyin ləğv olunması labüd idi. Nazirliyin ləğvində siyasi motivlərdən daha çox iqtisadi motivlərin olduğunu düşünürəm. Problem Ziya Məmmədovla bağlı idisə, onu vəzifədən azad edə bilərdilər, nazirlik qalardı".

**Partiya yetkilisinin fikrincə, bundan sonra da bir sıra dövlət qurumlarının birləşdirilməsi və ya ləğvinin, nəticədə bir sıra məmurların da vəzifəsini itirməsi kimi oxşar proseslərin şahidi olacağıq:** "Çünki yuxarıda qeyd etdiyim kimi, böhran eyni təmayüllü qurumların birləşdirilməsini diktə edir. Ona görə bu hadisənin hakimiyyətdaxili çəkişmələrdən daha çox iqtisadi böhranla əlaqələndirilməsi daha düzgün olardı".

**Siyasi ekspert Yeganə Hacıyeva isə hesab edir ki, bir sıra adamlar qədərsiz qeyri-ciddiliyə yuvarlanıblar. Ona görə də bir nazirin işdən azad edilməsini, nazirliyin başqa nazirliyə birləşdirilməsini belə, "hakimiyyətin sonunun yaxınlaşması" kimi təqdim edirlər. Hansısa məmurun, nazirin vəzifədən çıxarılması hakimiyyətin sonunun bir qədər də yaxınlaşması demək olsaydı, bu "son" çoxdan sona çatardı:** "Heç uzağa getməyək, ona qalsaydı ölkənin ən aparıcı güc strukturu olan Milli Təhlükəsizlik Nazirliyi və konkret Eldar Mahmudovla bağlı olaylarda da bəziləri o cür uzağa gedən nəticələr çıxarırdı. Ancaq onların proqnozlarının əksi baş verdi-hakimiyyət möhkəmləndi. Məncə, Ziya Məmmədovu bir az dincəldikdən sonra daha ciddi işlərin başına qoymaq üçün bir müddət istirahətə göndərdilər".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 35 (6649) 16 fevral 2017

**ABŞ-ın yeni prezidenti Donald Trampın komandasının bəzi üzvlərinin Rusiya kəşfiyyatı ilə əlaqələri üzə çıxıb. ABŞ kəşfiyyatı əlindəki məlumatları yavaş-yavaş mediaya ötürməyə başlayıb. Kəşfiyyat strukturlarının apardığı təhqiqat isə hələ davam edir.**

# İmpiçment Trampın qapısını döyür...

## ABŞ prezidentinin komandasında "satqın axtarışı" başladılıb



D.Trampın milli təhlükəsizlik üzrə müşaviri Maykl Flinn istefa verib. Fəaliyyətə başlamasının bir ayı tamam olmayan Flinnın istefa verməsinə səbəb Rusiyanın ABŞ-dakı səfiri Sergey Kislyakla telefon danışığı olub. İddialara görə, Flinn hələ vəzifəsinin icrasına başlamazdan əvvəl, 35 rusiyalı diplomatın ABŞ-dan deportasiyası qərarı verilən zaman səfirlə telefonla danışıb və bu zaman səfirə bildirib ki, Tramp vəzifəsinin icrasına başladıqdan sonra Rusiyaya qarşı sanksiyaları yumşaldacaq. Bu telefon danışığı ABŞ Federal Təhqiqatlar Bürosu tərəfindən dinlənilib və yeni müşavirə qarşı ciddi kompromata çevrilib. Qeyd edək ki, ABŞ qanunlarına görə, səlahiyyəti olmayan şəxslərin dövlətin adından diplomatik danışıqlar aparması qadağandır.

Flinn əvvəlcə bu iddiaları təkzib etsə də, sonradan belə danışığının ola biləcəyini etiraf edib. Və ardınca istefa verdiyini açıqlayıb.

Artıq Konqresdə ciddi şəkildə Trampın Rusiya ilə əlaqələrinin araşdırılması məsələsi qaldırılıb və bu tələblərə bir sıra respublikaçılar da dəstək verir. Proses impiçmentlə yekunlaşma ehtimalını yaradırmı? İmpiçmentin yeni prezidentin qapısını döymək üzrə olduğunu söyləmək olarmı?

**Politoloq Elçin Mirzəbəyli bildirdi ki, şübhəsiz, bu cür hadisələr Rusiya ilə əlaqələri barədə çoxsaylı şayiələrlə üz-üzə qalan Donald Trampın vəziyyətini daha da ağırlaşdırır. Amma bu o demək deyil ki, belə hadisələr Trampla Rusiyanın ayrı-ayrı siyasiləri arasındakı əlaqələri ortaya çıxaracaq, yaxud Trampın Rusiyanın adamı olduğunu sübuta yetirəcək. ABŞ-da hansısa ölkənin adamının prezident olması mümkün deyil. Sistem buna imkan verməz:** "Düşünürəm ki, Trampın Rusiya ilə əlaqələrinin ifşasına yönəlmiş addımların arxasında daha dərin maraqlar və hədəflər var. Ola bilsin ki, belə ittihamlar məhz Trampın Rusiyaya qarşı daha sərt siyasət yürütməsi üçün, məqsədyönlü şəkildə körüklənir. Yəni hər dəfə belə məlumatlar ortaya çıxdıqda Tramp özünü müdafiə üçün Rusiyanın ünvanına daha sərt ittihamlar səsləndirir. Bu fikrin təsdiqi üçün Donald Trampın Krımın ilhaqı ilə bağlı seçki kampaniyası zamanı səsləndirdiyi fikirlərə və bu barədə verdiyi son açıqlamalara nəzər salmaq yetərlidir. Mümkündür ki, hansısa dairələr Trampın özünümüdafiə psixologiyasından çıxış edərək Rusiya ilə münasibətlərinə yenidən baxa biləcəyini düşünürlər. Yaxud ABŞ-ın strateji hədəfləri bunu tələb edir.

İmpiçmentə gəldikdə isə zənnimcə, ilk növbədə bunun həyata keçirilməsi mexanizmi haqqında danışmaq lazımdır. Qeyd edim ki, impiçment sözü ilk dəfə ABŞ Konstitusiyasında öz əksini tapıb. ABŞ-da impiçmentə zəmin yaradan əsas amil vətənə xəyanətlə bağlıdır. ABŞ Konstitusiyasının 3-cü müddəasında qeyd olunur ki, Birləşmiş Ştatlara xəyanət yalnız ABŞ-a qarşı müharibə aparmaq və yaxud ABŞ-a qarşı müharibə aparanlara qoşulmaq, onlara kömək etmək və dəstək vermək sayılır. Göründüyü kimi, hələlik Trampı bu müddəada qeyd olunan cinayətlərdə ittiham etmək çox çətindir. ABŞ-da impiçment prosesi bir neçə mərhələni keçir:

ABŞ Konqresinin Nümayəndələr Palatasının hüquq komitəsi impiçment təşəbbüsü ilə çıxış edir;

Konqresin Nümayəndələr Palatası məsələni müzakirə etdikdən sonra səs çoxluğu ilə konkret şəxsə qarşı detallı və konkret ittihamlar irəli sürür; Senat impiçment haqqında təşəbbüsə məhkəmə işi kimi baxır; Daha sonra Senat impiçment təşəbbüsünün hər maddəsi üzrə ayrı-ayrılıqda qərar qəbul edir. Senatorlardan 2/3-nin səs verdiyi təqdirdə konkret şəxsə qarşı ittiham irəli sürülür.

Göründüyü kimi, impiçment proseduru olduqca mürəkkəbdir, hətta belə bir təşəbbüs olacağı təqdirdə belə, bütün mərhələlərdən keçəcəyi inandırıcı görünmür. Bu baxımdan, Donald Trampın yaxın zamanlarda impiçment ediləbiləcəyini inandırıcı hesab etmirəm".

AMİP-in beynəlxalq əlaqələr katibi Elşən Mustafayev isə bildirdi ki, Trampın seçilməsindən sonra bu qələbəni həzm edə bilməyən güclərin ona qarşı başladığı kampaniya bu gün də davam edir. Məsələnin maraqlı tərəfi də odur ki, Tramp atdığı bəzi addımlarla özünə qarşı hücumları daha da stimullaşdırır. Görünür, bu barədə də düşünməyə məcbur olacaq: "Konqres və Senatda respublikaçıların üstünlüyü olsa da, öz partiyasının bir çox nümayəndələri bu addımlara görə Trampa qarşıdırlar. Onsuz da öncədən də onun və komandasının Rusiya ilə, xüsusilə də Putinlə isti münasibətlərinin olması ittihamları gündəmdə idi. İndi də komanda üzvlərindən birinin belə səbəblərlə istefası yaxşı heç nə vəd etmir. Hesab edirəm ki, impiçment məsələsi indiki durumda istənilən vaxt mümkün olan variantdır. Amma bu bəlkə də ən sonuncu sırada duran variantdır. Bu gün ABŞ prezidentinə impiçment tətbiq etmək yüksək siyasi dairələr üçün, hətta demokratların özləri üçün mümkün olsa da, o qədər də arzulanan deyil. Bu, ABŞ-ın nüfuzuna ciddi xələl gətirəcək bir addım ola bilər. Daha məqsədəuyğun variant Trampı idarəetmə ənənələrini özündən əvvəlki prezidentlər kimi davam etdirməyə məcbur etməkdir. Hazırda impiçment hədələri, KİV-lər vasitəsilə basqılar, kütləvi etirazlar da məhz buna xidmət edir. Düşünürəm ki, möveyində tədricən yumşalma etməklə proseslərin impiçment səviyyəsinə gəlməsinə Tramp da imkan verməyəcək. Niyə tədricən deyirəm? Ona görə ki, seçki öncəsi sərgilədiyi ritorikasını, vədlərini bir anda 180 dərəcə dəyişəcəyi inandırıcı görünmür. Amma tədricən bir müddət sonra əsas gücləri qane edəcək bir xəttə gəlib çıxmaq daha real görünür".

❑ **Etibar SEYİDAĞA**

# Özümüzü yaxşı epitetlərlə bəzəməklə...



**Hüseynbala SƏLİMOV**

**Söz sözü çəkər. Prussiya kralı Böyük Fridrixlə bağlı belə bir rəvayət söyləyirlər. Deyilənə görə, kral çox gözəgəlimli bir yerdə özünə saray tikdiribmiş.**

Amma mənzərəni yaxınlıqdakı uçuq-sökük bir kənd dəyirmanı əməlli - başlı korlayırmış və buna görə kral əmr edir ki, dəyirmanı başqa bir yerə köçürsünlər. Fəqət, dəyirmançı razılaşmır ki, razılaşmır.

Axırda kral onu yanına çağırtdırır və qərarını şəxsən özü dəyirmançıya çatdırır və əks təqdirdə dəyirmanın heç nəyə məhəl qoyulmadan söküləcəyini bildirir. Di gəl, dəyirmançı yenə də təslim olmur və Fridrixə deyir ki, Prussiyada kraldan başqa məhkəmə də vardır.

Onun bu sözləri Fridrixin o qədər xoşuna gəlir ki, bir daha dəyirmançını narahat etmir, dəyirman da yerində qalır...

Niyə xatırladım bunu? ABŞ məhkəməsi prezident D.Trampa sözün əsl mənasında dirəniş göstərməkdədir. Düzdür, proses hələ bitməyib və prezident də təslim olmaq niyyətində deyil. Hətta ola bilsin, son anda hakimlər deyil, yenə də prezident prosesi udacaq.

Amma hakimlərdən birinin sözü indidən diqqətimi cəlb etdi. Onlardan biri dedi ki, ABŞ qanun ölkəsidir, qanunlarsa hamı üçün - prezident üçün də, adi vətəndaşlar üçün də birdir.

İllər çox şeylər haqqında təsəvvürlərimizi dəyişibdir. Daha əvvəlki vaxtlarda olduğu kimi ABŞ deyəndə bayılmırıq - çox məqamlar adiləşib, fəqət, yenə də baxıb görürsən ki, Amerika elə Amerikadır...

Amma dünyada ABŞ-ın "barışmaz opponent"ləri də olduqca çoxdur. Əlxüsus da Şərqdə belə həvəsdə bulunanlar istənilən qədərdir. Onlar ABŞ-ı qəbul etmir, onun siyasi sistemini və dəyərlərini gözdən salmağa çalışır, bunlara "alternativ"lər də təklif edirlər.

Ona görə də hakimlərlə D.Trampın toqquşması diqqətimizi cəlb etdi və ixtiyarsız olaraq beynimizdən bir sual keçdi: " Hansınızın ölkəsində belə şey var?!"...

Müsəlman ölkələrindən yalnız Türkiyədə belə şeyi təsəvvür etmək mümkündür - o da hələki... Ona görə "hələki" deyirəm ki, son vaxtlarda o da sürətlə avtoritarlaşmaqdadır. Hətta beynəlxalq təşkilatların məlumatlarında bu ölkədə yüzdən çox jurnalistin təzyiq altında olduğu deyilir.

Digər müsəlman ölkələrindəsə əməlli-başlı despotizmdir. Amma "yuxarı"lar bunun fərqində deyillər və heç nəyə məhəl qoymadan sözün əsl mənasında ABŞ-la ideoloji müharibə aparırlar.

Bəzilərisə ideologiyadan artıq silaha keçib - İŞİD, əl-Qaida və "taliban"lar buna sübutdur.

İndi çoxunu onların silahları qorxudur. Amma mənə həmişə elə gəlib ki, onların daha qorxulu silahı "ideya"larıdır...

Hər dəfə bu insanların "Allahu-Əkbər!" sədaları altında atəş açmasını seyr edəndə adamın bədənindən üşütmə keçir. Allahın adını xeyir əməllər üçün çəkərlər. Amma onlar tərsinə edir - Allahın adını çəkərək, adam öldürürlər...

Ən əsası da bu adamlar "alternativ ideya"ya malik olduqlarını düşünürlər. Və buna inananlar da tapılır. Bir də görürsən, ən ağlagəlməz yerlərdə dini fanatlar - İŞİD-çilər və ya qeyriləri peyda olur...

Qayıdıram ABŞ-ın siyasi sisteminə və bir də dəyərlərinə... Demirəm, idealdır, amma bundan yaxşısı harada vardır? Bu vaxta qədər kim daha yaxşı alternativlər təklif edə bilibdir? Təklif olunan bütün "alternativ"lər yalnız və yalnız mifdir, utopiyadır...

Bəlkə də bu "ideya generatorları" ürəklərində həmin miflərin, utopiyaların heç birinə inanmırlar - bunlar onlara başqalarının üzərində hakimiyyət, başqalarının şüuru ilə manipulyasiya etmək üçün gərəkdir.

İndiyədək onlarla totalitar sektalar olub ki, sonda onların adi fırıldaq məqsədilə yarandığı bəlli olub. Amma təəssüf ki, insanlar yenə də belə sektaların və "dini cərəyan"ların toruna düşməkdə davam edir, xüsusən də Şərq ölkələrində....

Niyə belə olur? K.Popper yazırdı ki, hər bir tədqiqatçı öz nəzəriyyəsini inkar edən dəlillər axtarmalıdır. Hətta F.Nitşe deyirdi ki, mənə qayıtmaq üçün məni inkar et...

Yəni insan heç nəyi doqma kimi qəbul etməməli, "Bunu prezident deyib" və yaxud da "Bunu filan din xadimi buyurub" deyərək heç bir halda təməl haqlarından birini - heç nəyi doqma kimi qəbul etməmək və hər şeyi təftiş etmək haqqından imtina etməməlidir.

İdeal heç nə yoxdur, hər şey müqayisədə dəyər qazanır. Nəticə isə Şərqin yox, Qərbin xeyrinədir.

Ona görə "Şərqə, yoxsa Qərbə doğru?" soruşmaqdan usanmayanların tərəddüddən qurtarmasının vaxtıdır.

"Demokratiya bizə nə verər?"- deyə soruşmayın. Cavabı göz önündədir. Sadəcə, onu görmək lazımdır...

YENİ MÜSAVAT
N 35 (6649) 16 fevral 2017

# Müsibəti-təhsil



**Zamin HACI**
zaminhaci@gmail.com

**2-ci sinifdə oxuyan uşaq məktəbdən evə gəlib valideynə deyir: "Kaş sənin də doğulduğun rayonun müsibəti olaydı, dərsini keçəydik". Anlamaq çətin deyil - təzəcə Xocalı faciəsi haqda nəsə öyrədiblər. Bundan qabaq da 20 yanvarı öyrətmişdilər. Sabah da 31 mart azərbaycanlıların soyqırımı günü yaxınlaşır.**

Kiçik yaşlı məktəblilərin dərsliklərini faciə, müsibət, ölüm, qırğın səhnələri ilə doldurmaqla yapistlər nəyə nail olmaq istəyir? Qafqazda bir "əzabkeş erməni xalqı" onsuz da var, təzəsinə nə ehtiyac? Tarixi, vətənpərvərliyi belə öyrətmirlər, bu ən axmaq, qeyri-sivil, çağdaş dünyaya aid olmayan üsuldur. Sən uşağa balaca vaxtından ədalətli olmağı, düzgünlüyü, həqiqəti öyrətməlisən. Özü böyüyüb kimin kim olduğunu seçəcək.

Tarix kitablarını da uşaq tarixi başa düşən yaşda öyrətməlisən. Yoxsa bizim hazırkı durum Vaqif Səmədoğlunun "Yaşıl eynəkli adam" pyesindəki uşaqlar üçün "tabutik" oyuncağı düzəldən tipin vəziyyətindən qəti fərqlənmir.

Bunu gəlişigözəl misal olaraq yazmadım, həqiqətən məktəblərimizdə "tabutik" düzəldirlər! "Texnologiya" dərsində uşaqlara Xocalı faciəsinin maketini hazırlamaq tapşırılır. "Rəsm" dərslərində gül-çiçək, göy üzü, dağ, çay, nə bilim, dəniz mənzərəsi çəkmək söhbəti yoxdur, uşaqlar ancaq "Ağla, qərənfil, ağla", "Mühasirədə donmuş körpəsini xilas edən ana", "Əsgərlərimiz Lələtəpəni aldılar", canım sənə desin, "20 yanvarda tankın uşağı basdalaması" temalarında işləyirlər. Bir dostumuz deyir ki, onun balaca qızına uşaq bağçasında belə bir şeir əzbərlədiblər:

**"Vətənə and içirik,**
**Düşmən qanı içirik!"**

Təsəvvür edin, manyaklıq, vampirlik hansı səviyyədədir... Özü də bunu dəyişdirmək mümkün deyil, bunun bir rəsmi dövlət siyasəti olduğunu dəqiq bilirəm. Yəni bu, dərslik müəllifi, tarixçilər, pedaqoqlar, nazirlik-filan səviyyəsində bir problem deyil. Sadəcə, bir kiçik xatırlatma da eləyim, söhbət bitsin - özümüz üçün donquldanırıq, başqa xeyri yoxdur.

Sovet dövründə orta məktəbdə bizə Xatın faciəsi adlı bir məsələ cidd-cəhdlə öyrədilirdi. Guya almanların vəhşiliyindən bəhs edilirdi. Axırda SSRİ dağıldı, məlum oldu ki, Xatın faciəsini elə SSRİ özü törədibmiş, minlərlə polyak zabiti meşəyə yığıb vəhşi soyuqqanlılıqla güllələyiblər. Elə KQB zabiti olub ki, tək canına 500-600 zabiti güllələyib.

Mən Xatın və Xocalı arasında paralel aparmaq istəmirəm, sadəcə, sözüm odur ki, belə tarixi faciələri tədris edərkən çox ehtiyatlı olmaq lazımdır. Hər şeyin öz yeri var. Hər təbliğatın öz yaş senzi olmalıdır. Yoxsa necə olur ki, içində ölüm, qan, vəhşilik olan kinoların üstündə "16 +" işarəsi qoyuruq, eyni zamanda uşaq dərsliyinə meyit şəkli çəkirik? Bu anomaliyanı mənə kim izah edə bilər?

O cümlədən, SSRİ-nin antifaşist təbliğatı paradoksal nəticələr də vermişdi, yadıma gəlir ki, çox adam almanlara rəğbət bəsləyirdi. Bunu özünəməxsus etnik Stokholm sindromu da saymaq olar.

Sonda bir az da daxili siyasətdən, dövlət başçısının hərəkətlərindən yazaq. Yəqin xəbəriniz var, Donald Tramp rəsmi prezident vəzifəsinə başlamağının heç bir ayı tamam olmamış (deyəsən, 24 gün idi), artıq bir ciddi kadr itiribdir. Onun milli təhlükəsizlik məsələləri üzrə müşaviri Maykl Flinn Rusiya ilə şübhəli əlaqələrdə suçlanıb istefaya məcbur oldu. Əslində bu tip hələ çoxdanın ruspərəsti kimi tanınırdı, hətta Moskvada bir qonaqlıqda Putinin yanında oturan yerdə fotosu vardı. Ancaq Tramp əkə bunu mümkün qədər qoruyub saxladı. Cəmi bir ay yəni.

Azərbaycan bu mənada da ABŞ-dan qat-qat qüdrətli dövlətdir. Nə olsun Marsda arabamız gəzmir, peykimiz ki var! Söhbət ondadır ki, bizim Eldar müəllim haqqında min dənə söz çıxsa da - bunun içində elə Rusiya agenti iddiası da vardı - hardasa 11 il milli təhlükəsizlik naziri işlədi. Dinəndə yankilər bizi bəyənmir. O sizin adı çıxan, bu bizim, hansı döyər? Məncə, Çovdarov da Rembonu döyər.

# Vaşinqtondan Kreml və satellitini rahatsız edən mövqe

**ABŞ-Rusiya münasibətləri hələ ki qeyri-müəyyənlik dönəmindədir. Bu da əsasən yeni prezident Donald Tramp və komandasının Kremlə münasibətdə izlədiyi siyasətin əsas konturlarının tam bəlli olmamasından qaynaqlanır. Bununla belə, Ağ Evin Rusiya ilə bağlı siyasət kursunda bir sıra mühüm gəlişmələr də baş verməkdədir - hansı gəlişmələr ki, Azərbaycan üçün də az önəm kəsb eləmir.**




# Ağ Evdən ermənilərə pis müjdə - Qarabağa "Krım təhlükəsi" sovuşdu!

## Trampın Ukrayna məsələsində mövqeyi qətiləşdi: "Rusiya yarımadanı sahibinə qaytarmalıdır"; ABŞ Moskvanın Güney Qafqazda da şəriksiz hegemonluğunu qəbul etməyəcək - Amerikanın regional siyasətində mühüm gəlişmə...

Söhbət öncəliklə Moskvaya qarşı ABŞ sanksiyalarının aqibətindən gedir. Artıq bəlli olub ki, sanksiyalar götürülməyəcək. Bunu Ağ Evin mətbuat katibi Sin Spayser jurnalistlərlə görüşündə deyib. "Birləşmiş Ştatların Rusiya Federasiyası əleyhinə sanksiyalar strategiyası dəyişməz qalır. Sanksiyalar toxunulmaz qalacaq", - deyə Ağ Ev sözçüsü qeyd edib.

**Mətbuat katibi bu mövqenin Rusiyanın Krımı ilhaq eləməsi ilə birbaşa bağlı olduğunu da gizlətməyib:** "ABŞ prezidenti Krımın Ukraynaya qaytarılmasını və Rusiyanın Donbasda gərginliyin azaldılması üçün tədbir görəcəyini gözləyir. Donald Tramp açıq şəkildə bildirdi ki, Rusiya hökumətindən Krımın qaytarılması ilə bağlı addım atmağı gözləyir. Tramp həmçinin Rusiya ilə dostluq şəraitində yaşamağı arzu edir".

Ağ Ev sözçüsü Azərbaycan da daxil, postsovet məkanı üçün önəmli sayılacaq bir açıqlama da verib. Deyib ki, "indiki administrasiya prezident Barak Obamanın Krımın işğalını mümkün edən səhvlərini təkrarlamaq fikrində deyil".

***

Yada salaq ki, Tramp özünün seçki kampaniyası dövründə Krımın Rusiya tərəfindən ilhaqını tanıya biləcəyini, Rusiya ilə əlaqələri normallaşdıracağını bəyan eləmişdi. Rəsmi Moskva isə normallaşma üçün ən əvvəl sanksiyaların götürüləcəyini gözləyir və buna ümid edirdi. Ancaq göründüyü kimi, normallaşma tezliklə baş tutmayacaq, çünki sanksiyalara səbəb olmuş Krimin ilhaqı məsələsində D.Tramp administrasiyası mövqeyini artıq qətiləşdirib: yarımada Ukraynaya qaytarılmalıdır.

Bu isə Rusiyanın indiki rəhbərliyi üçün gözlənilməz olmaqla yanaşı, qeyri-mümkün görünür. Konkret olaraq, prezident Vladimir Putindən ötrü bu, siyasi intihar demək olardı. Təsadüfi deyil ki, Ağ Evin məlum açıqlamasına Moskvadan cavab özünü çox gözlətməyib. Rusiya Federasiya Şurasının Müdafiə və Təhlükəsizlik Komitəsinin rəhbəri Viktor Ozerov deyib ki, "Krım Rusiya ilə ABŞ arasında sövdələşmə predmeti ola bilməz".

O, Krımın geri qaytarılmasının mümkün olmayacağını bildirib. "Krım Rusiyanındır və o heç vaxt sövdələşmə predmeti ola bilməz. Amerikanın Krımı geri qaytarmaq tələbi bizim ABŞ-dan Alyaskanı istəməyimizə bənzərdi. Hər ikisini icra etmək mümkünsüzdür", - deyə Rusiya rəsmisi qeyd edib.

***

Əlbəttə ki, Krım və Alyaska məsələlərini eyniləşdirmək yanlışlıq olardı. Çünki birinci halda söhbət işğaldan, ikinci halda isə Rusiya ilə ABŞ arasında legitim anlaşmadan gedir. Bizi isə təbii ki, daha çox Azərbaycan və Dağlıq Qarabağın taleyi maraqlandırır. Məsələ ondadır ki, Ağ Evin Krımla bağlı son mövqeyinin Qarabağ məsələsinə bilavasitə dəxli var. Nədən ki, Dağlıq Qarabağ da işğala məruz qalıb və zorla ilhaq edilib - bu halda işğalçı Ermənistan olsa da.

Sual ortaya çıxır, bəs Qarabağ necə, Azərbaycana qaytarılacaqmı, Vaşinqtondan bu məsələdə də prinsipial yanaşma gözləmək olarmı? Hələlik suala konkret cavab olmasa da, Trampın Krım məsələsində ortaya qoyduğu qətiyyət erməni tərəfinin kefinə soğan doğraya bilər. Çünki belə qənaət hasil olur ki, Tramp administrasiyası dövlətlərin suverenliyi və ərazi bütövlüyü məsələsinə laqeyd qalmaq, Moskva ilə bu kimi həssas məsələlərdə siyasi bazarlıq etmək fikrində deyil.

Belə bir presedent olmayacaq - nə Krım, nə də Qarabağ məsələsində. Əksinə, Vaşinqton Moskvanın "Yaxın xaric"ə yönəlik işğalçılıq siyasətinə qarşı daha barışmaz olacağının faktiki, anonsunu verib. Bu xüsusda Ağ Evin mətbuat katibinin söylədiyi "indiki administrasiya prezident Obamanın Krımın işğalını mümkün edən səhvlərini təkrarlamaq fikrində deyil" fikrinin altını iki dəfə cızmaq lazım gəlir.

***

Beləliklə, Qarabağa "Krım təhlükəsi"nin sovuşduğunu söyləmək olar. Sanksiyaların saxlanmasını da ciciyə alsaq, bu, həmçinin o anlama gəlir ki, Vaşinqton Güney Qafqaz bölgəsində də Kremlin təkbaşına hərəkət eləməsini, onun regionda şəriksiz hegemonluğunu qəbul etməyə hazırlaşmır.

Nəzərə alsaq ki, D.Trampın ABŞ-ın erməni lobbisi ilə yaxın əlaqələri yoxdur, əksinə, Azərbaycana biznes dairələri hesabına bizə "bir köynək" yaxındır, yeni dövlət katibi Reks Tillerson da keçmiş "neft bosları"ndan biridir, o zaman Qarabağ məsələsində rəsmi Bakının təbliğat və manevr imkanlarının arta biləcəyini proqnoz eləmək mümkündür - yetər ki, bu imkanlar vaxtında və lazımınca qiymətləndirilsin və istifadə olunsun.

❑ **Siyasət şöbəsi**

# Elmar Məmmədyarov Münhendə həmsədrlərlə görüşəcək

**Münhen Təhlükəsizlik Konfransı çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü nəzərdə tutulub.**



Bu barədə APA-ya XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib.

Qeyd edək ki, Ermənistan xarici işlər naziri Edvard Nalbəndyanın da konfrans çərçivəsində ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü nəzərdə tutulur.

Münhen Təhlükəsizlik Konfransı fevralın 16-17-də keçiriləcək.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk Qrupu məşğul olur. Qrup ATƏM (1994-cü ilin dekabrında keçirilmiş Budapeşt sammitindən sonra ATƏT) Nazirlər Şurasının 1992-ci ilin 24 martında Helsinkidə keçirilmiş görüşündə yaradılıb. Qrupun üzvləri Azərbaycan, Ermənistan, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa, İtaliya, Almaniya, Türkiyə, Belarus, Finlandiya və İsveçdir.

1996-cı ilin dekabrından onun Rusiya, ABŞ və Fransadan ibarət həmsədrlik institutu fəaliyyət göstərir.

**Dağlıq Qarabağa qanunsuz səfərlər etdiyi və Azərbaycana qarşı cinayət xarakterli kampaniya apardığı üçün Belarusda həbs edilib ölkəmizə gətirilən blogger Aleksandr Lapşinin həyat yoldaşı onun vəkili Səfər Hüseynovla telefonla danışıb.**



# "Lapşinin həbsi, saxlanma şəraiti ilə bağlı heç bir hüquq pozuntusu olmayıb"

## Azərbaycanın hüquq müdafiəçiləri Lapşini hansı halda müdafiə edə bilər?

Bu barədə dünən "Trend"ə S.Hüseynov məlumat verib. Onun sözlərinə görə, A.Lapşinin həyat yoldaşı onunla iki dəfə telefon əlaqəsi saxlayıb: "Bu gün də telefonla danışmışıq, Lapşinin saxlanma şəraiti və səhhəti ilə maraqlanıb, həmçinin istintaqın gedişini soruşub. Ona Lapşinin saxlanma şəraitinin və səhhətinin normal olması barədə məlumat verirəm. Həmçinin Lapşin səfirliklər tərəfindən də nəzarətdə saxlanılır, mütəmadi onun vəziyyəti ilə maraqlanırlar".

**S.Hüseynov bildirib ki, sonuncu dəfə A.Lapşinlə fevralın 9-da görüşüb:** "Hazırda istintaq hərəkətləri aparılır. Müstəntiq nə vaxt çağırsa və ya Lapşin görüşmək istəsə, xəbər edəcək, yenidən onunla görüşəcəyəm".

Vəkil qeyd edib ki, A.Lapşinin anasının Bakıya gələcəyi vaxt barədə hələlik məlumatı yoxdur.

**Dünən Rusiya Xarici İşlər Nazirliyi də Aleksandr Lapşinin Azərbaycana ekstradisiya edilməsinə yenidən münasibət bildirib. Rusiya XİN sözçüsü Mariya Zaxarova keçirdiyi brifinqdə Belarus tərəfinə Rusiya vətəndaşının üçüncü ölkəyə ekstradisiyasının yolverilməzliyi barədə mövqelərinin dəfələrlə çatdırıldığını söyləyib:** "Aleksandr Lapşin həm Rusiya və həm də İsrail vətəndaşıdır. Rusiya səfirliyinin nümayəndələri fevralın 9-da təcridxanada Lapşinə baş çəkiblər. Rusiyalı diplomatlarla görüş zamanı Lapşin saxlanma şəraiti ilə bağlı heç bir şikayət etməyib. Səfirliyimiz Azərbaycanın hüquq-mühafizə orqanları - Baş Prokurorluq, Azərbaycan XİN, o cümlədən İsrailin bu ölkədəki səfirliyi ilə daim təmasdadır. Səlahiyyətimiz çərçivəsində Rusiya vətəndaşının bütün hüquqlarının müdafiəsini təmin etmək üçün mümkün tədbirləri görür, məsələni nəzarətdə saxlayırıq. Hazırda Lapşinə yüksək ixtisaslı vəkil yardımı göstərilir. Qarşıda məhkəmə prosesi var. Mətbuatdan xahiş edirik ki, yoxlanılmamış məlumatları dərc etməsin".

Bəzi rusiyalı hüquq müdafiəçiləri isə Azərbaycan hüquq müdafiəçilərinin A.Lapşinin məsələsinə laqeyd qaldığını bildiriblər və həmkarlarını qınayıblar.

**Azərbaycanın tanınmış hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirdi ki, qınaqların heç bir əsası yoxdur:** "Aleksandr Lapşin Azərbaycan qanunlarını açıq-aşkar pozduğu və bu səbəbdən Azərbaycan Cinayət Məcəlləsinin konkret maddələrində tövsif olunan cinayət əməlinə yol verdiyi üçün onun haqqında cinayət işi açılıb. Həbs olunması və Azərbaycana gətirilməsi beynəlxalq hüquq normalarına uyğun həyata keçirilib. Bu mərhələyədək Lapşinin hüququnun pozulması halı baş verməyib. Lapşin Kürdəxanıdakı Müvəqqəti Saxlama Təcridxanasında hüquqi prosedurlara uyğun olaraq yerləşdirilib və nə vəkili, nə də onunla görüşən Rusiya diplomatları tərəfindən onun təcridxanada vəziyyətindən narazılıq etməyiblər, hüquqlarının pozulduğunu deməyiblər. Hüquq müdafiəçiləri Lapşini o zaman müdafiə edərdilər ki, indiki mərhələyədək olan prosedurlarda onun hüquqları pozulmuş olaydı, yaxud təcridxanada saxlanma şəraiti pis olaydı, işgəncə veriləydi. Bunlar baş vermədiyi üçün hüquq müdafiəçilərinin Lapşini müdafiə etməsinə heç bir əsas olmayıb. Bundan sonrakı mərhələ isə məhkəmə prosesi olacaq. Məhkəmə prosesi də şübhəsiz ki, qanunlara uyğun keçiriləcək və hər şey hüquq müstəvisində gedəcək, məhkəmədə də Lapşinin hüquqları pozulmayacaq və hüquq müdafiəçilərinin işə qarışmasına ehtiyac olmayacaq. Hüquq müdafiəçiləri yalnız o halda hansısa şəxsin müdafiəsinə qoşulurlar ki, həmin şəxsin saxlanılmasında, barəsində çıxarılan məhkəmə hökmündə, təcridxanada və həbsxanada saxlandığı müddətdə ona qarşı hüquq pozuntuları baş verir. Lapşinin isə bu günədək heç bir hüququ pozulmayıb".

M.Qəhrəmanlı qeyd etdi ki, rusiyalı hüquq müdafiəçiləri qanunlara və insan hüquqlarına həqiqətən də hörmətlə yanaşsaydılar, separatçı Dağlıq Qarabağ rejiminin qanunsuz həbs etdiyi və işgəncələrə məruz qoyduğu Rusiya vətəndaşı Dilqəm Əsgərovun məsələsini qaldırmalıydılar. Dilqəm Əsgərovun taleyi ilə zərrə qədər maraqlanmayan rusiyalı hüquq müdafiəçilərinin indi Azərbaycandakı hüquq müdafiəçilərini Aleksandr Lapşinə laqeydlikdə suçlamasına heç bir haqqı yoxdur.

Qeyd edək ki, Azərbaycan Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaqı aparılan cinayət işi üzrə Rusiya, İsrail və Ukrayna ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan Aleksandr Lapşin Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçmə, ərazi bütövlüyünü parçalamağa yönələn açıq çağırışlar etmə əməllərinə görə təqsirləndirilən şəxs qismində cəlb edilib, beynəlxalq və dövlətlərarası axtarışa verilməsi ilə əlaqədar 2016-cı il dekabrın 15-də Belarus Respublikasının hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılaraq, 2017-ci il fevralın 7-də Azərbaycana ekstradisiya edilib.

❑ **Etibar SEYİDAĞA**



# Putin Stalini geridə qoyur

**Rusiyanın "Levada" sorğu mərkəzi bu ölkənin və keçmiş SSRİ-nin rəhbərlərinə münasibəti öyrənib. Nova-tor.az-ın məlumatına görə, ölkənin 48 bölgəsində 1600 nəfər arasında keçirilmiş sorğu Stalini, Brejnevi və Putini önə çıxarıb.**

Sovet dövlətinin qurucularından olan İosif Stalin SSRİ-yə 1924-1953-cü illərdə rəhbərlik edib.

Leonid Brejnev 1964-1982-ci illərdə SSRİ-nin rəhbəri olub.

Vladimir Putin 2000-ci ildən Rusiyaya rəhbərlik edir.

"Levada"nın sorğusuna görə, Stalinə 46%-in münasibəti yaxşıdır.

Brejnevə 47% rəğbət bəsləyir.

Putinə yaxşı münasibətdə olanlar isə 83% təşkil edir.

# "Kennedi və Nikson aqibəti"



**Xalid KAZIMLI**

**20-ci əsrin ən müəmmalı hadisələrindən biri prezident Kennedinin qətli, ən qalmaqallı olaylardan biri isə Niksonun istefasıdır. Bugünlərdə o məsələ yenidən aktuallaşıb.**

Hələ ötən ilin noyabrında milyarder biznesmen Donald Tramp gözlənilməz bir şəkildə ABŞ prezidenti seçiləndə mütəxəssislər belə bir fikir səsləndirdilər ki, əgər Tramp hazırda tutduğu xətti davam etdirsə, seçki kampaniyasında xalqa verdiyi vədləri yerinə yetirsə, aqibəti ya Kennedinin, ya da Niksonun aqibəti kimi olacaq.

Donald Tramp andiçmə mərasimini başa çatdırıb oval kabinetə qədəmlərini basdığı ilk saatda dünyaya göstərdi ki, o havayı yerə söz danışmırmış, vədlərini də yerinə yetirəcək, hətta seçki kampaniyasında göründüyündən daha odioz fiqur olacaq.

Bir neçə gündən sonra "Kennedi və Niksonun aqibəti" barədə söhbətlər daha da intensivləşdi və açıq-açıq müzakirə olunmağa başladı.

ABŞ-ın yeni tarixinə bələd olanlar bilir ki, prezident Kennedi 1963-cü ildə Dallas şəhərində snayper gülləsi (rəsmi versiyaya görə) ilə öldürülüb. Riçard Nikson isə 1974-cü ildə impiçmentlə hədələnərək istefaya məcbur edilib.

Bu hadisə - Niksonun istefası Kennedinin qətlindən 11 il sonra baş verib. Belə mülahizələr var ki, onun qanının arasına məhz Kennedinin qətlinin dünya miqyaslı qalmaqala çevrilməsi olub. Kennedini güllə ilə sıradan çıxaran güclər bu dəfə humanistlik ediblər və Niksonu medianın gücüylə zərərsizləşdiriblər.

Üstündən 54 il keçib, hələ də Kennedinin qətlinin hansı qüvvələr tərəfindən təşkil edilməsi barədə rəsmi və yekdil rəy yoxdur. Hələ o zaman ortaya bir neçə versiya atılıb, xəbər kirliliyi yaradılıb, izlər itirilib, bir sıra nüanslar ört-basdır edilib.

Məsələn, Kennedini snayper tüfəngi ilə vurduğu iddia edilən Li Xarvi Osvald adlı şəxs elə qətli törətdiyi gün Cek Rubi adlı kefcil barmen tərəfindən tapança ilə güllələnərək öldürülüb. Guya ki, Rubi sevimli prezidentinin ölümündən çox təsirlənibmiş. Amma bu şəxsin xüsusi mühafizə altında məhkəməyə aparılan Osvalda necə yaxınlaşması, belindəki silahla onun bir neçə addımlığına necə gəlib çıxması çox şübhəlidir. Cek Rubinin həbsxanada, heç bir jurnalistlə təmas qurmadan ölüb getməsi də ondan xəbər verir ki, qətlin təşkilatçıları izi itirməyə çalışıblar.

Li Xarvi Osvaldın qatil olaraq seçilməsi də təsadüfi olmayıb, qətlə görə şübhəni SSRİ-nin üstünə atmaq məqsədi güdüb. Osvaldın vaxtilə SSRİ-yə köçüb getməsi, Minskdə yaşaması, orada Marina Prusakova adlı rus qadınla evlənməsi və sair detallar qətldə "SSRİ izi" yaratmağa xidmət edib.

Halbuki Kennedi SSRİ ilə yaxınlaşmaq, sürətlə silahlanma yarışına son vermək, mühüm sazişlər imzalamaq xətti götürüb, danışıqlar aparırmış. Başqa sözlə, SSRİ sərt siyasi xətt tərəfdarı olan prezidentlərdən sonra belə bir mötədil şəxsin öldürülməsində maraqlı ola bilməzdi. Kennedinin mafiya ilə müharibəyə görə qətlə yetirilməsi versiyası da uzun müddət yaşaya bilmədi. Belə bir şey olsaydı, ABŞ dövləti cinayətin üstünü qısa zamanda açardı.

Qətlin üstünün açılmaması, sifarişçilərin mühakimə edilməməsi onu göstərir ki, qətlin müəllifləri ABŞ dövlətinin başbilənləri arasında olublar. Kim bilməsə də, vitse-prezident Lindon Conson, dövlət katibi Din Rask, müdafiə naziri Robert Maknamara, daxili işlər naziri Stüart Adall, Federal Təhqiqat Bürosunun 1-ci direktoru, bu vəzifədə 1935-ci ildən 1972-ci ilə qədər çalışmış Edqar Quver qətlin arxasında kimlərin durduğunu biliblər.

Maraqlıdır ki, Riçard Nikson da SSRİ (amerikalıların prizmasından - Rusiya) ilə yaxınlaşmanın qurbanı olub. Onun hakimiyyəti dövründə Çinlə əlaqələr yaxşılaşdırılıb, SSRİ ilə strateji silahların məhdudlaşdırılması barədə müqavilə imzalanıb, Vyetnam müharibəsinə son qoyulub. Nəticədə adamı ABŞ tarixində ilk istefa verən prezidentə çeviriblər.

İndi Tramp Rusiya ilə yaxınlaşmasına görə cavabdeh duruma gəlib. Artıq onun özünün və komandasının Rusiya rəhbərliyi ilə əlaqələri faş olub, hətta milli təhlükəsizlik müşaviri Maykl Flinn bu üzdən istefa verməyə məcbur olub.

Artıq Tramp özü də təhlükənin miqyasını və reallığını hiss edir. O, Rusiyanın güdazına gedən üçüncü prezident olmaq istəmir - nə Kennedi kimi, nə də Nikson kimi.

# "Yeni sərəncam məhbusların sayının artmasının qarşısını alacaq"

## Əliməmməd Nuriyev: "Probasiya xidmətinin yaradılmasında məqsəd müəyyən cinayətləri törətmiş şəxsləri cəmiyyətdən təcrid etmədən islah olunmasını təmin etməkdir"

**Azərbaycanda çoxdan gözlənilən sərəncam verilib. Ölkə başçısının imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı vətəndaşların xırda hüquqpozmalara görə həbsə məhkum edilməsinin qarşısını alır, digər tərəfdən, borc münasibətlərinin dələduzluq cinayəti kimi tövsif olunmasının qarşısını almalıdır.**

Sərəncamla bağlı "Yeni Müsavat"ın əməkdaşının suallarını cavablandıran **"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmətə Nəzarət üzrə İctimai Komitənin üzvü Əliməmməd Nuriyev** deyib ki, son 12 ildə pentensiar sahədə, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı aparılan islahatların növbəti mərhələsi başlayır: "Yeni islahatlar dövrü başlayır. Bu addım zamanında atılıb və pentensiar sahədə, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı indiyədək əldə edilmiş təcrübədən effektiv yararlanmaq imkanı verir. Sərəncamın məzmununa nəzər salsaq görərik ki, cəmiyyətin, fərdin və dövlətin maraqları nəzərə alınıb. Uzun illərdir ki, cəzaçəkmə müəssisələrində monitorinqlər aparan, penitensiar sistemin fəaliyyəti ilə yaxından tanış olan bir şəxs kimi qeyd edə bilərəm ki, sərəncamda mövcud problemlər çox aydın şəkildə göstərilib. 2016-cı ilin may ayına qədər, növbəti amnistiya verilən zamana kimi Azərbaycan hər yüz min nəfərə düşən məhbus sayına görə, Avropada 4-cü yeri tuturdu. 2016-cı il 8 mart tarixində Avropa Şurası Avropa ölkələrindəki həbsxanaların vəziyyəti ilə bağlı hesabatını açıqlamışdı. Hesabatda qeyd olunur ki, Rusiyadan sonrakı yerləri əhalinin hər 100 min nəfərinə düşən məhbusların sayına görə 305 nəfərlə Litva, 240 nəfərlə Latviya, 238 nəfərlə Azərbaycan, 227,9 nəfərlə Gürcüstan, 225 nəfərlə Estoniya, 204 nəfərlə Ukrayna tutur. Türkiyədə hər 100 min nəfərə düşən məhbus sayı 197,5, Moldovada 201,3, Polşada 203,5 nəfərdir. Avropa Şurasına üzv ölkələrdə hər 100 min nəfərə düşən məhbus sayı 124 nəfər təşkil edir. Hesabatda qeyd olunur ki, 2014-cü ilin məlumatına görə, Azərbaycanda azadlıqdan məhrum olunmuş şəxslərin sayı 22 min 579 nəfər təşkil edib. Ümumilikdə isə Avropa ölkələrində 2011-ci ildən bəri cəzaçəkmə yerlərində hər 100 yerə düşən məhkum sayında azalma müşahidə olunur. 2001-ci ildə bu göstərici 99, 2013-cü ildə 96, 2014-cü ildə 94 olub. 2014-cü ildə Avropa Şurası ölkələrində hər 100 min nəfərə düşən məhbus sayı 124 nəfər təşkil edir. 2013-cü ildə isə bu göstərici 134 nəfər idi. Göründüyü kimi, Azərbaycan rəhbərliyi və müvafiq strukturlar zamanında bu problemə çevik reaksiya verdilər".

**Ə.Nuriyev "sərəncam nələri dəyişəcək" sualına belə cavab verdi:** "Sərəncamda nəzərdə tutulan tədbirlər və Probasiya xidmətinin yaradılması bu problemi əhəmiyyətli dərəcədə həll etməyə imkan yaradacaq. Bu xidmətin yaradılmasında əsas məqsəd müəyyən cinayətləri törətmiş şəxsləri cəmiyyətdən təcrid etmədən islah olunmasını təmin etməkdir. Bu məqsədə nail olmaq üçün ixtisaslaşmış yeni qurum - Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılıb. Probasiya sınaq deməkdir və hüquq nəzəriyyəsində bu anlayış şəxsin müəyyən şərtlərə riayət etməsi müqabilində cəzadan azad olunmasıdır. Elektron nəzarət vasitələrinin tətbiqini nəzərdə tutur. Məhkumun və ya təqsirləndirilən şəxsin yerləşdiyi yeri müəyyən etməyə, yerdəyişməsini qeydə almağa imkan verən texniki vasitənin həmin şəxsin üzərində yerləşdirilməsindən ibarətdir. Məhkum edilmiş şəxs qolbaq və ya saat formasında olan xüsusi çiplərlə təchiz edilən, rabitə şəbəkələrinə qoşulan vasitələri daşıyacaq. Qolbağın və ya saatın zədələnməsi, icazəsiz çıxarılması və ya onlara müdaxilə edilməsi cəhdləri olduqda bu barədə dərhal monitorinq mərkəzinə siqnal ötürüləcək. Bundan sonra müvafiq tədbirlər görüləcək.

Alternativ cəzaların tətbiqi ilk növbədə fərdin, vətəndaşın maraqlarını əsas tutmağa imkan verəcək. Bir qayda olaraq bütün cəmiyyət və dövlət cəza siyasətində kollektiv maraqların əsas tutulmasına çalışır, cəza siyasəti bunu uyğun həyata keçirilir. Amma alternativ cəzaların geniş tətbiqi məhz fərdin hüquqlarının qorunması baxımından əhəmiyyətlidir. Obrazlı şəkildə deyə bilərik ki, alternativ cəzaların tətbiqi vətəndaş üçün daha humanist islah yolu təqdim edir. Sərəncamda daha çox bu məsələyə diqqət yetirilməsi çox mühümdür. Dövlət başçısı aydın mesaj verdi ki, alternativ islah yolları hazırda dövlət üçün də prioritet olmalıdır. Yəni dövlət cəza siyasətində əvvəlki təcrübə ilə müqayisədə azadlığın sərhədlərini daha da genişləndirir".



**"Bu, elektron nəzarət vasitələrinin tətbiqini də nəzərdə tutur"**

**Ə.Nuriyev deyir ki, Ədliyyə Nazirliyi, Penitensiar Xidmət hər zaman cəzaların icrası sahəsində mütərəqqi yeniliklərə açıq olub:** "İndiyədək bu sahədə çoxşaxəli islahatlar həyata keçirilib, səmərəli ictimai nəzarət sistemi tətbiq olunub. Qanunvericiliyin təkmilləşdirilməsi indiyə qədər görülən işlərin davam etdirilməsi, yeni islahatlar üçün çox yaxşı imkanlar verir və vəzifələr müəyyənləşdirir. Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov müsahibəsində bunu çox dəqiq şəkildə ifadə edib: "Sərəncam penitensiar sahənin inkişaf etdirilməsi və cəza siyasətinin humanistləşdirilməsi üçün proqram xarakteri daşımaqla bu sahədə fəaliyyət göstərən dövlət orqanları üçün "yol xəritəsi" olacaq".

**Komitə üzvü yeni sərəncamın məhbusların sayının artmasının qarşısını alacağını da diqqətə çatdırdı:** "Bu məqsədlə cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması, cinayətlərin sanksiyalarına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunması və alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi ilə bağlı qanun layihələrinin hazırlanması nəzərdə tutulub. Böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs-qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması ilə bağlı qanun layihələrinin hazırlanması tövsiyə edilib. Məhbus sayının artması iqtisadi problem kimi də nəzərdən keçirilməlidir. Azərbaycanda hər il təxminən 80 milyon manatdan çox maliyyə vəsaiti yalnız məhbusların saxlanması xərclərinə sərf edilir. Bura Penitensiar Xidmətin institusional xərcləri aid deyil. Bu məbləğə yalnız məhbusların qidalanması, geyimi, məişət şəraiti üçün və s. çəkilən xərclər daxildir. Avropa həbsxanalarında hər məhbus üçün gündəlik ayrılan məbləğ 99.1 avrodan 96.7 avroya qədər azalıb. 2012-ci ilin məlumatına görə, Rusiyada gündəlik hər məhkum üçün 2.2 avro, Belarusda isə 2011-ci ildə 1.48 avro, Qırğızıstanda 2014-cü ildə 1.55 avro xərclənib. Qazaxıstanda isə bu məbləğ 5 avrodan çoxdur. Yəni alternativ cəza sisteminin səmərəli işləməsi iqtisadi baxımdan da faydalıdır. Digər mühüm məsələ Penitensiar Xidmətin fəaliyyətində nəzərdə tutulan islahatlardır. Bu zaman da yeni yanaşma tətbiq olunur. Cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin tam təmin olunması ilə bağlı tədbirlərin görülməsinin planlaşdırılması da çox mühümdür. Alternativ cəzaların tətbiq edilməsi halları genişləndikcə, ictimai işlər və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan digər cəzalara məhkum edilən şəxslərin böyük kontingenti yaranacaq. Bu sistemin idarə olunması, islah sisteminin səmərli işləməsi üçün də sərəncama müvafiq olaraq tədbirlər görüləcək. Şübhəsiz ki, Probasiya xidməti məhz bu sistemi idarə edəcək, məntəqə tipli CM-lər yeni formatda fəaliyyət göstərəcək. Məhkumların əməyə daha çox cəlb edilməsinin genişlənməsi ehtiyacı yaranacaq. Bütün bunlar üçün də müasir həll variantları təklif edilir. Xüsusən bizneslə əməkdaşlıq imkanları yaranacaq. Probasiya xidmətinin yaranması sosial inteqrasiya tədbirlərinin daha effektiv görülməsi, insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, adaptasiyası tədbirlərini həyata keçirməyə imkan verəcək. Bunun fəlsəfəsində cəmiyyət və dövlətin çətin həyat şəraitinə düşən, bundan irəli gələrək səhv buraxan insanların daha humanist yolla islahına nail olmaqdır. Yəni cəmiyyət və dövlət belə səhvlərin aradan qaldırılması üçün daha humanist yanaşma nümayiş etdirir. Probasiya tədbirləri ilk növbədə profilaktika deməkdir. Yəni səhv edən vətəndaşlar alternativ cəzaların köməyi ilə islah edilir. Bunu üçün dəmir barmaqlıqlar arxasında oturmağa ehtiyac qalmır. Düşünürəm ki, bu ölkəmiz son dərəcə vacib sərəncamdır. Sərəncam məhz kompleks tədbirlər nəzərdə tutur və bu sənədin üstünlüklərindən biri də məhz budur. İlk növbədə normativ hüquqi baza yəqin ki, yenidən nəzərdən keçirilməlidir. Məhkəmə sistemi cəzaların təyin edilməsi praktikasında doğrudan da çox ciddi dəyişiklik etməlidir. Prezident sərəncamında məhkəmələrə tövsiyə hissəsində bu məsələlər çox aydın və detallı şəkildə əksini tapıb. Hakimlərimizdən çox böyük peşəkarlıq, deyərdim ki, cəsarət və humanizmin birgə istifadəsi tələb olunacaq. Məhkəmə sistemi, hakimlərimiz elə praktika gətirməlidirlər ki, prezident sərəncamında nəzərdə tutulan hədəflərə tam çata bilək. Eyni zamanda məhkəmə araşdırması da daha ciddi aparılacaq və hakimlərimizin məsuliyyətinin artacağını da söyləyə bilərik.

Probasiya sistemi elə işləməlidir ki, cəza və mükafatlandırma tədbirlərində tarazlıq gözlənilsin. Eyni zamanda subyektiv yanaşma hallarının qarşısı alınsın. Statistika və uçotun aparılması, məlumatların toplanmasının effektiv sistemi də tələb olunmalıdır ki, tədbirlərinin necə səmərə verməsini görmək mümkün olsun. İctimai nəzarətin də əhəmiyyəti çox yüksələcək. Belə ki, bu yeni sistemin necə işləməsi və mümkün nöqsanların aradan qaldırılması üçün ictimai nəzarət çox mühüm alət kimi çıxış edəcək".

❑ **E.MƏMMƏDƏLİYEV**



# Kremldən yeni "sülh təşəbbüsü" - Lavrov XİN başçılarına nə deyəcək?

## Minsk Qrupunun həmsədrləri tərəflərlə görüşə, işğalçı isə Dağlıq Qarabağda "referendum"a hazırlaşır; vasitəçilərin məqsədi Ermənistandakı parlament seçkilərinin sakit keçməsi üçün aprel müharibəsini ertələməkdir, yoxsa...

**Aprel savaşının daha geniş miqyasda təkrarlana biləcəyi barədə xəbərdarlıqlar, deyəsən, Rusiya başda olmaqla, ATƏT-in Minsk Qrupunun həmsədrlərini narahat etməyə başlayıb. Hər halda, Moskvanın uzun fasilədən sonra Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə ayrılıqda görüş təşəbbüsü ilə çıxış etməsi səbəbsiz deyil.**

Düzdür, hələlik Kreml münaqişə tərəflərini bir araya gətirməyə tələsmir. "Yaxın vaxtlarda Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında üçtərəfli görüşün keçiriləcəyi barədə məlumat yoxdur. Bu barədə məlumat olan kimi bildirəcəyik", - deyə, Rusiya XİN-in sözçüsü Mariya Zaxarova 15 fevralda keçirdiyi brifinqdə deyib (APA).

Ötən həftə Azərbaycan XİN başçısı Elmar Məmmədyarov mətbuata açıqlamasında rəsmi Moskvanın nazirləri bir araya gətirmək niyyətində olduğunu təsdiqləmişdi. Doğrudur, o, görüş perspektivindən pessimist danışmışdı və hansısa ciddi nəticəyə ümid etmədiyinə işarə vurmuşdu. Amma bununla belə, demişdi ki, rəsmi Bakı Ermənistandan fərqli olaraq, danışıqlara hazırdır. Bir şərtlə ki, aparılan müzakirələr nəticə versin.

E.Məmmədyarov bu sözləri Moskvaya səfərindən sonra demişdi. Yeri gəlmişkən, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə Rusiya xarici işlər nazirinin iştirakı ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi təklif edilsə də, bu, baş tutmamışdı. Görünən budur ki, Ermənistan müxtəlif bəhanələrlə danışıqlardan imtina edir və vaxt qazanmağa çalışır.

Bu arada işğalçı Dağlıq Qarabağda "referendum" keçirmək cəhdi ilə beynəlxalq hüququ və həmsədrlərin təşəbbüslərini saya almadığını nümayiş etdirir. Belə ki, 20 fevral 2017-ci il tarixində Ermənistan Azərbaycanın müvəqqəti işğal altında olan ərazilərində yaradılmış qondarma qeyri-qanuni rejimdə "konstitusiyaya dəyişikliklər edilməsi ilə bağlı referendum" keçirilməsini planlaşdırır. Artıq Azərbaycan XİN bu qanunsuzluqla bağlı bəyanat yayıb. **"Biz beynəlxalq ictimaiyyəti qondarma qeyri-qanuni "referendum"u rədd etməyə və Ermənistanın öz xalqı və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyan lüzumsuz cəhdlərindən əl çəkməsi, işğalçılıq və ilhaqçılıq siyasətinə son qoyması, münaqişənin nizamlanması prosesində konstruktiv şəkildə iştirak etməsi və beynəlxalq öhdəliklərinə əməl etməsi üçün Ermənistana siyasi və diplomatik təzyiq göstərməyə çağırırıq"**, - deyə bəyanatda bildirilir.

Əslində bu, Ermənistanın münaqişənin sülh yolu ilə çözümünə tərəfdar olmadığını təsdiqləyən növbəti faktdır. Özü də bu, danışıqlardan imtina olunduğu bir ərəfədə baş verir. Deməli, düşmən seçimini edib və onunla yalnız silahla danışmaq lazım gələcək. Rusiya da Ermənistanın nazı ilə oynamaqda davam edir.

**M.Zaxarova Ermənistan tərəfinin Dağlıq Qarabağda "referendum" planlaşdırması barədə suala da cavab verib:** "Dağlıq Qarabağ problemi yaxın vaxtlarda Ermənistan XİN rəhbərinin Moskvaya səfəri zamanı müzakirə olunacaq. Onu da bildirmək istəyirəm ki, qısa müddətdə azərbaycanlı həmkarlarımızla da təmas planlaşdırılır. Bu səviyyədə də Dağlıq Qarabağ mövzusu müzakirə olunacaq. Məlum məsələ ilə bağlı reaksiyamızı isə daha sonra bildirəcəyik".

Eyni zamanda Minsk Qrupunun həmsədrlərinin də nazirlərlə görüş planlaşdırdığı məlum olub. Yayılan məlumata görə, Münhen Təhlükəsizlik Konfransı çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü nəzərdə tutulub. Bu barədə APA-ya XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev məlumat verib.

Qeyd edək ki, Ermənistan xarici işlər naziri Edvard Nalbəndyanın da konfrans çərçivəsində Minsk Qrupunun həmsədrləri ilə görüşü nəzərdə tutulur. Aprel müharibəsindən sonra təkbaşına vasitəçilik missiyasını həyata keçirən Kreml yenidən Azərbaycan və Ermənistan rəhbərlərini bir araya gətirməyə çalışır.

"Dağlıq Qarabağ məsələsi yaxın zamanlarda Rusiya xarici işlər naziri Sergey Lavrovla ermənistanlı həmkarı Edvard Nalbəndyan arasında keçiriləcək görüşdə müzakirə olunacaq və bu barədə daha əvvəl məlumat verilib. Orta müddətli perspektivdə azərbaycanlı həmkarlarla müvafiq səviyyədə görüşlər keçirilməsi planlaşdırılır və əlbəttə ki, bu mövzu da müzakirə olunacaq". Bu sözləri də M.Zaxarova deyib.

Əslində Rusiyanın və konkret halda, Rusiya XİN başçısı S.Lavrovun mövqeyi bəllidir. Lavrov ötən ay daha irəli gedərək "Dağlıq Qarabağ məsələsi Azərbaycanın daxili işi deyil" söyləməklə Ermənistanın işğalçı siyasətini müdafiə etdiyini açıq şəkildə ortaya qoydu. Bunun ardınca adətən Kremlin mesajlarını yaymaq işinə məsul olan Vladimir Jirinovski Azərbaycan və Ermənistanı quberniyaya çevirmək niyyətindən bəhs etdi.

**Politoloq Hikmət Hacızadə "Yeni Müsavat"a açıqlamasında qarşıdakı görüşlərdən ciddi bir nəticə gözləmədiyini söylədi:** "Hələ ki situasiya dəyişməyib. Rusiya bizə qarşı imperialist mövqeyini davam etdirir. Ona görə də biz növbəti teatr tamaşasını görəcəyik". Politoloq danışıqlar görüntüsünün arxasında tamam başqa niyyətin olduğunu da istisna etmədi. Onun fikrincə, ola bilər ki, həmsədr ölkələr Ermənistandakı seçkiləri sakit şəkildə yola vermək üçün cəbhədə sakitliyi qorumaq üçün də "atəşkəs"ə nail olmaq istəyirlər.

Bu arada erməni ekspertlər davamlı şəkildə ikinci aprel müharibəsinin elə aprel ayında başlaya biləcəyi haqda həyəcanlı xəbərdarlıqlar edirlər.




***

Qeyd edək ki, Münhen Təhlükəsizlik Konfransı fevralın 17-19-də keçiriləcək. Bu tədbir çərçivəsində Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan da Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşəcək. E.Nalbəndyan həmçinin bir sıra ikitərəfli görüşlər keçirəcək.

Yeri gəlmişkən, ötən ilin sonlarında ATƏT-ə sədrlik edən Almaniya Münhendə keçirilən tədbir çərçivəsində tərəfləri bir araya gətirməyə çalışsa da, buna nail ola bilməmişdi. Bunun ardınca Ermənistan təxribat-diversiya hərəkətlərini daha da artırdı və qarşılıqlı itkilər oldu. Bu mənada həmsədrlərin növbəti təşəbbüsünün nə ilə nəticələnəcəyi barədə konkret fikir bildirmək çətindir. Amma ona şübhə yoxdur ki, işğalçı yenə də balanslı münasibət görəcəksə, daha da azğınlaşaraq gərginliyi artıracaq.

Məsələ təkcə Rusiyanın Ermənistanla bağlı dəstəkçi siyasətində deyil. Bugünlərdə digər həmsədr ölkənin - Fransanın prezidenti Fransua Olland da açıq şəkildə ermənilərə müdafiə mövqeyindən çıxış edib. Fransa prezidenti erməni diasporu ilə görüşündə Qarabağ münaqişəsinin həllində xalqların öz müqəddəratını təyinetmə prinsipinin əsas götürülməsi barədə məntiqsiz fikir səsləndirib. Bununla o, Qarabağ separatçılarının ürəyindən xəbər versə də, Azərbaycanda sərt etirazla qarşılanıb. Hətta parlamentin son iclasında deputat, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev deyib ki, Fransa prezidenti son bəyanatı ilə Ermənistanın işğalçı rejiminə və işğalçılıq siyasətinə dəstək verib. Buna görə də deputat Fransaya etiraz notası təqdim etməyə çağırıb.

**Fransanın Ermənistandakı səfiri Jan-Fransua Şarpantye deyib ki, Ermənistan və Fransa prezidentləri martın 8-də Parisdə danışıq aparacaqlar. Səfir deyib:** "Prezident Serj Sərkisyan prezident Fransua Ollandın dəvəti ilə Parisə gedəcək. Dövlət başçıları 2017-ci il üçün müştərək proqramlarını müzakirə edəcəklər". Şarpantye qeyd edib ki, 2016-cı il Ermənistanla Fransa arasında ikitərəfli münasibətlər baxımından çox dolğun il olub. Səfir xatırladıb ki, Ermənistana dəstək üçün Fransa 2016-cı ildə 20 milyon dollar vəsait ayırıb. Beləliklə, Fransa ABŞ və Almaniyadan sonra Ermənistana yardımın həcminə görə 3-cü yeri tutur. Bütün bunlar reallıqdır. ABŞ-ın Ermənistanı məhz aprel döyüşlərindən sonra gecəgörmə cihazları ilə təmin etməsini də unutmamalıyıq.

**Politoloq Elxan Şahinoğlu dedi ki, indiki durumda xarici işlər nazirlərinin Münhendə həmsədrlərlə və ya öz aralarında görüşü heç nəyi həll etmir:** "Ermənistan hakimiyyəti Dağlıq Qarabağ ətrafındakı torpaqları qeyd-şərtsiz azad etmək istəmir, belə olan halda da Azərbaycan hakimiyyəti işğalçını Dağlıq Qarabağ ətrafından qovmaq üçün hərbi təzyiq taktikasından əl çəkməyəcək. Həmsədrlərin bir-birindən 180 dərəcə fərqli iki ölkənin mövqeyini yaxınlaşdırmaq səyləri isə nəticə vermir. Buna görədir ki, həmsədrlər uzun müddətdir ki, prezidentlərin görüşünü təşkil edə bilmirlər. Çünki bu görüş, sadəcə, imitasiya xarakteri daşıyacaq. İmitasiya isə Ermənistanın xeyrinədir".

Beləliklə, Münhen görüşünə Azərbaycan, sadəcə, özünün Qarabağla bağlı prinsipial mövqeyi, iradəsi ilə gedir. Qarşı tərəfdə isə işğalçı və onu dəstəkləyən həmsədr ölkələrin "turist diplomatları" var...

# İmtahan ödənişləri abituriyentlərin cibinə uyğun olacaqmı?

## Təhsil eksperti: “Qəbul imtahanlarının qiymətinin kəskin artması təhsilə ciddi zərər vura bilər...”



**Tarif Şurası ilə test imtahanlarının ödənişinin müəyyənləşdirilməsi istiqamətində danışıqlar artıq başlanılıb. Bunu jurnalistlərə açıqlamasında Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib. Onun sözlərinə görə, test imtahanlarının ödənişinin müəyyənləşdirilməsi istiqamətində yarım ildir ki, iş aparılır.**

“Bizim təkliflərimiz hazırdı. Araşdırmaların nəticələrini müvafiq nazirliklərə göndərmişik. Təbii ki, imtahanların ödənişi biz tərəfdən deyil, Tarif Şurası tərəfindən qəbul ediləcək”, - deyə o qeyd edib. M.Abbaszadənin bildirdiyinə görə, qəbul imtahanlarının il ərzində iki dəfə keçirilməsi ilə bağlı yenilik neçə il idi ki, hazırlanırmış: “Çoxsaylı müraciətlər olurdu. Abituriyentlər yaxşı nəticə əldə etmək üçün ikinci şans istəyirdilər. Əvvəllər TQDK dövlət büdcəsindən maliyyələşdirilirdi və hər bir abituriyentə müəyyən məbləğ həcmində vəsait ayrılırdı. Buna görə də biz təkrar imtahan keçirə bilməzdik. Çünki bu, büdcənin artmasına gətirib çıxara bilərdi. Artıq bu xidmət bir növ pullu olduğu üçün abituriyentlər üçün əlavə imkan yaradılıb”. M.Abbaszadə onu da deyib ki, hər bir abituriyent hansı imtahanda iştirak etmək istədiyini özü müəyyən edəcək.

Bəs bu ödənişlər abituriyentlərin cibinə uyğun olacaqmı?

**Təhsil eksperti Kamran Əsədov Dövlət İmtahan Mərkəzinin (DİM) sınaq və qəbul imtahanlarının qiymətini ciddi şəkildə artırsa, maliyyə itkisi ilə qarşılaşa biləcəyini dedi:** “Cəmiyyətdə belə fikir var idi ki, sanki indiyədək keçirilən qəbul imtahanları ödənişsiz əsaslarla həyata keçirilirdi, bundan sonra isə ödənişli əsaslarla olacaq. Xeyr, bu belə deyil. Buraxılış imtahanları istisna olmaqla, TQDK (DİM) tərəfindən təhsilin istənilən pilləsi üzrə keçirilən qəbul imtahanları ödənişli - pullu olub. Bu imtahanda iştirak edən iddiaçı xidmət haqqı ödədikdən sonra iştirak hüququ əldə edib. Sadəcə olaraq, bu ilə qədər TQDK-ya həm də dövlət büdcəsinin vəsaiti ilə maliyyə dəstəyi olurdu. Bu məbləğ il ərzində beş milyon manat təşkil edirdi. TQDK ləğv olunub publik şəxsə çevrildikdən sonra bu quruma dövlət tərəfindən verilən vəsait dayandı. Bu ildən etibarən DİM-in özü göstərdiyi xidmətlərə görə maliyyələşdirilməsini özü həyata keçirəcək. Bu qurumun hazırda yeganə gəlir mənbəyi təhsilin müxtəlif pillələri üzrə sınaq və qəbul imtahanlarını keçirməklə əldə edəcəyi vəsait olacaq. Hesab edirəm ki, məhz bu ildən etibarən qəbul imtahanlarının iki mərhələdə keçirilməsini zəruri edən halların başında bu gəlir”.

**Ekspertə görə, DİM sınaq və qəbul imtahanlarının qiymətini ciddi şəkildə artırsa, nəzərdə tutulan kimi gəlir əldə edə bilməyəcək, əksinə, ciddi şəkildə maliyyə itkisi ilə qarşılaşa bilər:** “Bunu statistik göstəricilər deyir. İndiyə qədər keçirilən sınaq və qəbul imtahanlarının qiymətləri fərqli olub. Sınaq imtahanları 3.54 AZN, qəbul imtahanları 2.54 AZN olub. İndi bu rəqəm maksimum 7-8 manat ola bilər. DİM qeyd edir ki, bir sual kitabçası onlara 25 manata başa gəlir. Axı onlar imtahanda iştirak edən hər bir iddiaçıya ayrıca sual kitabçası tərtib etmirlər. Bu gün kifayət qədər kurslar qazanc əldə etmək üçün sınaq imtahanları keçirirlər. Onların qiyməti 7 manatdan artıq deyil. Onlar da DİM-in xərcləri qədər maliyyə sərf edirlər. Bundan əlavə, iki il ərzində hələ ənənəvi qaydada qəbul həyata keçiriləcək. Yeni test tapşırıqları qəbul edilmir. Deməli, DİM test tapşırıqlarına vəsait sərf etməyəcək. Belə çıxır ki, indi müəyyən olunan qiymətlər iki ildən sonra kurikulum əsasında qəbul aparılanda dəyişəcək? Magistr pilləsi üçün imtahan qiyməti 10-15 manatdan baha ola bilməz. Ənənəvi test tapşırıqlarının yoxlanılmasına da o qədər vəsait sərf edilmir. Bundan başqa, imtahan nəticələrinin öyrənilməsi ilə də bağlı xərclər var. Bu, SMS qiymətləridir. Hesab edirəm ki, bu da 0.50 AZN-dən çox ola bilməz”.

**Ekspert qəbul imtahanlarının qiymətinin kəskin artmasının təhsilə ciddi zərər verəcəyini dedi:** “Hazırda Azərbaycanda 36 dövlət və 15 özəl ali məktəb fəaliyyət göstərir. Azərbaycanda yalnız dövlət universitetlərinə deyil, özəl universitetlərə də hər il hər ixtisas üzrə nə qədər tələbə qəbul ediləcəyini hökumət müəyyən edir. Lakin xaricdə tam əksinədir. Dövlət universitetləri istisna olmaqla, özəl universitetlər nə qədər tələbə qəbul edəcəklərini özləri müəyyən edirlər. Xaricdə daha bir üstünlük bundan ibarətdir ki, orada yaxşı təhsil verən özəl universitetə köməklik göstərilir. Lakin bizdə əksinə, yaxşı təhsil verən özəl universitet sıxışdırılır. Bu da öz növbəsində təhsilin keyfiyyətini aşağı salır. Əgər imtahanda iştirak edənlərin sayı azalsa və müsabiqə şərtlərini ödəyən abituriyentlər yalnız dövlət universitetlərini seçsələr, özəl universitetləri böhran gözləyir. Ümumiyyətlə, bu ildən etibarən orta məktəblər tam şəkildə təmayülləşməyə keçir. Bu, regionlarda şagirdlərin 10-11-ci siniflərdə kütləvi şəkildə məktəblərdən yayınmasına və məhrum olmasına gətirib çıxaracaq. Bundan başqa, yüksək qiymətlərlə sınaq və qəbul imtahanları keçirsək, bu da onların təhsilə cəlb olunmasına ciddi şəkildə maneə olacaq. Onsuz da Azərbaycanda ali təhsillilərin sayı o qədər də çox deyil. Təhsil Nazirliyi Azərbaycanda ali təhsillilərin sayının artması istiqamətində iş apardığı halda orta məktəblərin təmayülləşməsi və sınaq qəbul imtahanlarının qiymətinin kəskin artması buna mənfi təsir edəcək. İnsanlar yüksək imtahan xərci və yüksək təhsil haqqı ödəyib Azərbaycanda oxumaqdansa, daha ucuz təhsilin olduğu xarici ölkələrə üz tutacaqlar”.

❑ **Günel MANAFLI**

# Mənzillərin qiyməti iki dəfə ucuzlaşacaq

## Ehtimallara görə, təxminən 100 min manat civarında olan mənzillər 50-60 min manat həddində qərarlaşacaq

**Ölkədə dollar-manat məzənnəsindəki dəyişikliklərin mənzil bazarına necə təsir edəcəyi yenidən müzakirə mövzusudur. Ekspertlərin bu məsələdə münasibəti haçalanır. Həmçinin bildirilir ki, dolların ucuzlaşması da qiymətlərə təsirsiz ötüşməyəcək. Bildirilir ki, ictimaiyyət dolların qiymət artımını gözləsə də, son günlər ABŞ valyutasının qiyməti ucuzlaşır. Bu isə öz növbəsində ümidini dollara bağlayıb gəlirini artırmaq istəyənlərə zərbədir.**



Fins.az xəbər verir ki, qarşıdakı günlərdə paytaxtda mənzillərin qiyməti iki dəfəyə yaxın enəcək. Ehtimallara görə, qiyməti təxminən 100 min manat civarında olan mənzillər 50-60 min manat həddində qərarlaşacaq. Xüsusən bu bahalaşma paytaxtın Xətai, Nizami, Suraxanı, Sabunçu və Yasamal rayonlarında olacaq. Əsasən yeni və köhnə tikili binalarda mənzillərin qiymətinin ucuzlaşacağını deyən mənbə bunu iki əsas amillə əlaqələndirir: “Buna dolların ciddi şəkildə ucuzlaşması və ipoteka kreditləri ilə bağlı qaydaların sərtləşməsi səbəb olacaq”. Bu səbəbdən mənbəmiz mənzil almaq istəyən şəxslərə bir qədər gözləməyi, ev almaqla bağlı qərarını 20 gün sonraya saxlamağı tövsiyə edir.

Ekspert Rəşad Əliyev məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bundan sonra da ucuzlaşma davam edəcək: “Ancaq söhbət dollar qiymətlərindən gedir. Dollar qiymətlərində ucuzlaşma davam edəcək. Böyük templəri gözləməyə dəyməz. O ki qaldı manat qiymətlərinə, manatın məzənnəsindən çox şey asılı olacaq. İstənilən halda məzənnə, qiymətlər yuxarı da, aşağı da gedə bilər. Amma istənilən halda bu, manatın dollara olan nisbətindən çox asılı olacaq. Dollar ekvivalentində sözsüz ki, qiymətlərin azalmasının davam etməsini müşahidə edəcəyik. Bazardan hər hansı bir fövqəladə hal gözləmirəm. Artıq mənfi amillər qiymətlərdə nəzərə alınıb. Müsbət amillər isə heç gözlənilmir”.

Qeyd edək ki, bir neçə gün öncə Beynəlxalq Bank bir sıra tikinti şirkətləri vasitəsilə təklif etdiyi 20 illik ipoteka kreditini dayandırıb. Bir neçə digər bankın da uzunmüddətli ipoteka kreditlərindən imtina edəcəyi xəbəri dolaşır. Təbii ki, bu da əmlak bazarına təsirsiz ötüşməyəcək.

**Qadir İbrahimli bankların bu qərarını doğru addım kimi qiymətləndirir.** O, «Bu gün uzunmüddətli ipoteka verilməsi bankların maraqlarına uyğun gəlmir. Maliyyə sabitliyi olmayan ölkədə bankların belə qərar qəbul etməsi normal haldır. Çünki belə bir vəziyyətdə bankların uzunmüddətli kredit verməsi onlar üçün böyük risklərə gətirib çıxara bilər. Belə olan halda artıq tikinti şirkətləri özləri daxili kreditlər hazırlayaraq alıcılara təklif edəcək və bu da əmlak bazarında fərqli qiymətlər formalaşmasına səbəb olacaq”,- deyə məsələ ilə bağlı “Sputnik Azərbaycan”a bildirib. **Ekspertin sözlərinə görə, ümumiyyətlə, son illər Azərbaycanda əmlak bazarında qiymətlər süni şəkildə dəyərindən ən azı 2 dəfə çox bahalaşıb:** “Xaricdən gətirilən valyuta hesabına evlər baha qiymətə alınırdı. İndi isə manat dəyərdən düşüb, dolların dəyəri artıb və insanların belə bahalı evlərə verəcək pulları yoxdur. Bir müddət sonra, hətta indiki qiymətlər də enməyə başlayacaq, bir il ərzində əmlak bazarında qiymətlər tənzimlənəcək”. O qeyd edib ki, yaxın gələcəkdə bahalaşma yox, əksinə, ucuzlaşma ehtimalı yüksəkdir.

**Ekspert Əkrəm Həsənov isə bildirib ki, daşınmaz əmlak bazarını kəskin qiymət düşməsi gözləyir:** “Bazarda qiymətlər ən azı 50 faizdən çox düşəcək. Amma qiymətlərin bu ildən yox, yaxın 3 il ərzində düşməsi gözlənilir. Banklar da bunu bildiyindən uzunmüddətli kredit verərək risk etmək istəmir. Aydındır ki, əmlak bazarında qiymətlər çox şişirdilmişdi. Bu da xarici valyutanın ölkəyə axını ilə bağlı idi. İndi xarici valyuta axını azalıb və manat dəyərdən düşüb. Bu da şübhəsiz ki, əmlak bazarına təsir edəcək”.

**Ekspert Nüsrət İbrahimov isə qeyd edib ki, yaxın müddət ərzində mənzillərin satış qiymətində dəyişiklik gözlənilmir. Manatın möhkəmlənməsi daşınmaz əmlakın qiymətinə təsir edə bilməz:** “Hələ bilinmir ki, məzənnədə yaşanan məlum dəyişiklik nə qədər davam edəcək. Müvəqqəti olacaq və ya birdəfəlik manat əvvəlki vəziyyətinə qayıdacaq. O üzdən bu hal daşınmaz əmlakın qiymətinə təsir edə bilməz”. Onun sözlərinə görə, manatın məzənnəsinin dollara nisbətən dəyişməsi daşınmaz əmlak bazarında aktivliyə səbəb ola bilər: «Əlində dolları olan şəxslər çalışacaq ki, yatırım etmək üçün mənzil sahibi olsun. Əmlak almaq üçün müraciət edənlərin sayı arta bilər. Ancaq bu aktivlik qiymət dəyişikliyinə təsir edə bilməz". Ekspert qeyd edib ki, daşınmaz əmlak bazarında qiymət dəyişikliyi tez bir zamanda baş vermir. Bu, uzun zaman tələb edir, 7-8 ay ərzində daşınmaz əmlak bazarında yaşanan aktivlik qiymətə öz təsirini göstərir.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 34 (6649) 16 fevral 2017

# Bakıda yol polisini söyən 3 sürücü həbs olundu




**Bakıda yol polisinə tabe olmayaraq qaçan və avtoxuliqanlıq edən 3 sürücü həbs olunub.**

Avtosfer.az xəbər verir ki, fevralın 8-də "Jeep Grand Cherokee" markalı, 90 GJ 011 dövlət nömrə nişanlı avtomobilin sürücüsü Həsənov Elçin Səracəddin oğlu Səməd Vurğun küçəsi ilə Y.V.Çəmənzəminli küçəsinin kəsişməsində yol hərəkəti qaydalarını kobud həkildə pozduğu üçün yol polisi əməkdaşları "saxla" işarəsi veriblər. Lakin sürücü polisə tabe olmayaraq qaçmağa çalışıb. Bir qədər sonra DYP əməkdaşları onu saxlaya biliblər. Bu zaman sürücü polislərə müqavimət göstərərək onları təhqir edib, nalayiq söyüşlər söyüb.

Bununla bağlı toplanmış materiallar Nərimanov Rayon Məhkəməsinə göndərilib. Məhkəmə qərarı ilə sürücü Elçin Həsənov 10 gün inzibati həbs cəzasına məhkum edilib.

Fevralın 12-də isə "Tofaş" markalı, 10 FF 666 dövlət nömrə nişanlı avtomobilin sürücüsü, 40 yaşlı Mustafayev Ramin Qılman oğlu 20 Yanvar dairəsində yol hərəkəti qaydalarını pozaraq avtoxuliqanlıq edib. DYP əməkdaşları tərəfindən saxlanılan sürücü onlara müqavimət göstərib və ağır söyüşlərlə təhqir edib. Qaçmağa çalışan sürücü yol polisləri tərəfindən saxlanılıb və toplanmış materiallar aidiyyəti üzrə Yasamal Rayon Məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə sürücü Ramin Mustafayev 13 gün müddətinə inzibati qaydada həbs olunub.

Fevralın 14-də isə "Mitsubishi" markalı, 10 PK 902 dövlət nömrə nişanlı avtomobilin sürücüsü, 28 yaşlı Zeynalov Nəsir Melyalı oğlu Yusif Səfərov küçəsində qaydanı pozaraq qaçmağa çalışıb. Yol polisinin tələbini yerinə yetirməyən sürücü az sonra tutulub. O, xidməti vəzifəsini yerinə yetirən yol polisi əməkdaşlarına müqavimət göstərərək onları təhqir edib. Toplanmış materiallar əsasında Xətai Rayon Məhkəməsi Nəsir Zeynalova 10 gün inzibati həbs cəzası verilib.

Onların hər üçü hazırda Daxili İşlər Nazirliyinin İnzibati həbs olunanların saxlanma məntəqəsində cəza çəkir.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Xırdalanda 11-ci sinif şagirdi intihar etdi

**Abşeronda intihar hadisəsi baş verib. Rayon prokurorluğundan APA-ya verilən məlumata görə, Xırdalan şəhər sakini, 2000-ci il təvəllüdlü Fərrux Ağakişi oğlu Əsədli özünü yaşadığı Rəsulzadə küçəsindəki 1 saylı binanın damından atıb. Onun özünə qəsd etməsinin dəqiq səbəbləri hələlik məlum deyil.**

Məlumata görə, F. Əsədli Xırdalanda yerləşən 1 saylı orta məktəbin 11-ci sinif şagirdi olub.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

## Silahlı müqavimət göstərən sərhəd pozucusu zərərsizləşdirildi



**Fevralın 14-də saat 15:10 radələrində Samux rayonunun Salahlı kəndi ərazisindəki sərhəd zastavasının xidməti ərazisində dövlət sərhədini pozmağa cəhd göstərən bir nəfər silahlı şəxs aşkar edilib.**

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən «Trend»ə verilən məlumata görə, sərhəd pozucusu sərhəd naryadının qanuni tələblərinə tabe olmayıb, silahlı müqavimət göstərərək qaçmağa cəhd edib. Sərhədçilər təlimata uyğun hərəkət edərək silah tətbiq edib və sərhəd pozucusunu sol ayağından yaralayaraq yaxalayıblar.

İlkin tibbi yardım göstərildikdən sonra yaralı şəxsin Samux rayonu Salahlı kənd sakini, 1966-cı il təvəllüdlü Qarayev Məhəmməd İsa oğlu olduğu müəyyən edilib və Şəmkir rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

Hadisə yerinə baxış zamanı bir ədəd 12 mm-lik qoşalülə ov tüfəngi, bir ədəd patron qatarı, 12 ədəd dolu və 8 ədəd boş patron aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.



## Qadının boyunbağını zorla alan iki kişiyə cəza verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində soyğunçuluqda təqsirləndirilən Zamin Haqverdiyev və Namiq Ələkbərovun cinayət işi üzrə məhkəmə başa çatıb.**

Teleqraf.com xəbər verir ki, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə Zamin Haqverdiyev və Namiq Ələkbərovun hər biri 6 il müddətinə azadlıqdan məhrum ediliblər.

Məhkəmənin hökmü ilə təqsirləndirilən şəxslər barəsində narkomaniyadan məcburi müayinə təyin edilib.

İttihama görə, ötən il iyulun 17-də Nəsibə Nurəliyevaya məxsus qızıl boyunbağı soyğunçuluq yolu ilə əlindən alınıb. Sumqayıt Şəhər Polis İdarəsinin 1-ci polis bölməsi əməkdaşlarının əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törədən şəhər sakinləri Zamin Haqverdiyev və Namiq Ələkbərov tutulublar.

Onlar əvvəllər də məhkum olunublar.

## Polşadan oğurluq "Land Rover" gətirən azərbaycanlı saxlanıldı

**Ukraynanın "NovıyeYarilovıçi" avtomobil buraxılış məntəqəsində sərhədçilər Avropa Birliyi ölkələrindən birində oğurlanan avtomobili saxlayıb.**

Virtualaz.org yerli mətbuata istinadən xəbər verir ki, avtomobil Ukraynaya giriş üçün rəsmiləşdirilən zaman Polşa qeydiyyatında olan "Land Rover"in İnterpolun məlumat bazasında olduğu aydınlaşıb.

Əlavə yoxlama zamanı müəyyən edilib ki, 2013-cü ildə buraxılmış avtomobil 2016-cı ilin aprelindən Polşada oğurlanıb.

Hazırda avtomobil və onun sürücüsü - 35 yaşlı Azərbaycan vətəndaşı Repkinski rayon polis bölməsində saxlanılır.



## Gəncədə polisə ictimai dəstək qrupunun üzvü bıçaqlanıb

**Gəncə şəhərində bıçaqlanma hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə Gəncənin şərq çıxışında yerləşən Kəlbəcərdən olan məcburi köçkünlər üçün salınan qəsəbədə qeydə alınıb. Kəlbəcər Rayon Polis Şöbəsinin nəzdində olan polisə ictimai dəstək qrupunun üzvü, 1993-cü il təvəllüdlü Salahlı Şəhriyar Qürbət oğlu hələ ki kimliyi məlum olmayan şəxs tərəfindən bıçaqlanıb. Cinayəti törədən şəxs hadisə yerindən qaçıb. Yaralı isə Gəncədə olan xəstəxanaların birinə yerləşdirilib.**

Vəziyyətinin orta ağır olduğu bildirilir.

Faktla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

YENİ MÜSAVAT
N 35 (6649) 16 fevral 2017

# Məktəblilərin intihar etməsinə iki baxış

## Psixoloq: "Yeniyetmələrdə gizli depressiya yaşanır"

**Xırdalanda 11-ci sinif şagirdi intihar edib. Bir müddət öncə isə 14 yaşlı məktəbli oğlan da heç kəsə bəlli olmayan səbəblərdən intihar etmişdi. Demək olar ki, böyüklərin intiharı ilə yanaşı, məktəblilərin də suisid statistikası həyəcan təbili çalmağa əsas verir.**

Məktəblərin əksəriyyətində psixoloqlar olsa da, onların fəaliyyəti yalnız kağız üzərindədir. Azərbaycandan fərqli olaraq digər ölkələrdə depressiyada olduğu fərq edilən uşağa dərhal məktəb psixoloqu müdaxilə edir, valideynləri ilə danışır. Bizdə isə vəziyyət intihar həddinə qədər gəlib çatır. Maraqlıdır, məktəbli niyə intihar etsin ki? Uşaqları həyatdan küsdürən nədir? Valideynlər uşaqları ilə necə davranmalıdır?

**Psixoloq Vəfa Rəşidova yeniyetmələrdə gizli depressiya yaşandığını dedi:** "Uşaqlarda, yeniyetmələrdə də depressiya olur. Yeniyetmələrdə daha çox ailə ilə bağlı intiharlar olur. Amma mümkündür ki, bu, genetik intihara meyllilikdən də irəli gəlsin. Biz psixoloq olaraq ilkin rəy üçün genetikanı yoxlayırıq ki, gendə intihar halı baş veribmi? Bundan sonra isə yaranan problemləri araşdırmaq lazımdır. Yeniyetmələrdə gizli depressiya yaşanır. Həmin o depressiya pik nöqtəyə çatanda o, intihara cəhd edir. Uşaq ana bətnində olarkən ana depressiya yaşayırsa, bu, təbii ki, uşağa da yansıyır və uşaq depressiyaya meylli biri olaraq dünyaya gəlir. Bəzən deyirlər ki, uşaq elə yaxşı sakit uşaqdır ki, bir kənarda oturur və ya qapını örtüb digər otağa keçir. Bu yaxşı, sakit uşaq demək deyil. Burada artıq uşağı diaqnostikadan keçirməlidirlər ki, mənim uşağım niyə belədir? Bütün uşaqlar bir-birinə qarışır, oynayırlar, amma mənim uşağım kənarda kədərli dayanır. Bəzən valideynlər buna görə sevinir ki, uşağım sakitdir. Xeyr, bu sakit demək deyil. Bunun kökündə nəsə var. Çünki bir kənarda boynunu büküb oturmaq uşağa xas xüsusiyyət deyil".

**Psixoloqa görə, yeniyetmələrdə də intihar halı çox zaman ailədaxili münasibətlərə görə olur:** "Bu daha çox boşanan ailələrdə müşahidə olunur. Praktikamda belə bir şey müşahidə etmişdim ki, uşaqlar arasında müqayisə aparılması da intihara gətirib çıxara bilən səbəblərdəndir. İki bacı vardı, valideynləri onları daim müqayisə edirdilər ki, sənin bacın belədir, bunu bacarır, sən elə deyilsən, bacına bax örnək götür və s. Həmin o yeniyetmə qız uşağını o həddə çatdırmışdılar ki, o özünü evin tam ortasından asmışdı. Bunun əslində psixoloji açıqlaması vardı. Həmin o yeniyetmə qız davranışı ilə ailəsini cəzalandırdı ki, baxın, mən artıq yoxam, çəkin mənim acımı. Düzdür, bu çox yanlış bir addımdır. Əslində intihara meyl göstərən insan "yaşamaq istəmirəm", "bezmişəm", "məni istəmirsiniz" kimi sözlərlə evdə mütləq bir siqnal ötürmüş olur. Valideynlər burada ayıq olmalıdır. Yeniyetmələrdə xüsusi problem sevgi yetərsizliyi, qayğıdır. Bir də anidən olan intihar olur ki, onun səbəbi heç vaxt heç kimə aydın olmur".

**V.Rəşidova məktəb psixoloqlarının motiviasiya olmadığını bildirdi:** "Bu gün iş xatirinə gəldim qol çəkdim ki, işdə olmuşam deyib getmək asandır. Amma işini görmək lazımdır. Psixologiya elə bir sahədir ki, son nəfəsinə kimi nəsə etməlisən ki, ortada əziyyətinin bəhrəsi olsun. Məktəb psixoloqları o qədər diqqətli olmalıdır ki, heç olmasa depressiyanın nə olduğunu özləri üçün öyrənsinlər. Məktəb psixoloqları sinifləri gəzsə, uşaqlarla fərdi söhbət etsə, məktəbli intiharlarının sayı azalar".



**Təhsil eksperti:** "İntiharların səbəbi məktəb rəhbərliyinin düzgün yol tutmamasıdır"

**Təhsil eksperti Kamran Əsədov isə məktəbli intiharlarının səbəbini məktəb rəhbərliyinin düzgün yol tutmamasında gördüyünü dedi:** "Orta məktəblərin çoxunda psixoloqlar yoxdur, yaxud onlar vəzifələrini düzgün yerinə yetirə bilmirlər. 2015-2016-cı tədris ilində apardığım kiçik araşdırmadan sonra bu qənaətə gəldim. Apardığım araşdırmadan məlum oldu ki, məktəblərdə çalışan psixoloqların çoxu peşəkar deyil. Bu vəzifədə çalışanların əksəriyyətinin hətta psixologiya üzrə təhsili belə yoxdur. İntihar hallarının məktəblilər arasında artmasının səbəbi orta təhsil müəssisələrində psixoloqların zəif işləməsidir. Nəzərə alsaq ki, valideynlər səhər işə gedib, axşam evə gəlirlər, demək, uşaq ən çox məktəbdə vaxt keçirir. Belə olan halda, şagirdlərin problemləri ilə məktəb rəhbərliyi və orada çalışan psixoloqlar maraqlanmalıdır. Məktəblərdə bu sahədə çalışanların əksəri psixologiya üzrə təhsil almayıb. Çox təəssüf ki, bu gün məktəblərdə çalışan psixoloqların əksəriyyətinin özlərinə psixoloq lazımdır. Onların çoxunun işi şagirdlərin problemlərini dinləmək, problemlərin həlli istiqamətində məsləhət vermək yox, bu barədə məktəb direktoruna satqınçılıq etməkdən ibarətdir. Bu gün Azərbaycan orta məktəblərində azı 1 psixoloq, əgər uşaqların sayı min nəfəri keçirsə, 2-3 mütəxəssis çalışmalıdır. Amma heç biri gedib uşaqları dinləmir. Onların fizioloji problemlərini soruşmurlar. Hesab edirəm ki, orta məktəblərdə psixoloq yerinə savadlı kadrlar götürülməlidir. Buna görə də bir çox psixoloqlar əsas işi görmürlər. Sadəcə, məktəb direktorunun tapşırığını yerinə yetirirlər. Bu gün məktəb psixoloqlarının özləri şagirdlərlə kobud, əsəbi, qeyri-etik davranırlar. Əslinə qalsa, baş verən neqativ hadisələrin, intiharların səbəbi məktəb rəhbərliyinin düzgün yol tutmamasıdır. Bu gün məktəblərdə müəllimlər, psixoloqlar kurslara, treninqlərə getmirlər. Düşünürəm ki, məktəb direktorları qarşısında bu tələblər qoyulsa, bu sahəyə diqqət ayrılsa, təhsildə ciddi dönüş yaranacaq, intihar halları məktəblilər arasında azalacaq".

❑ Günel MANAFLI

# Sürücülər üçün yeni qaydaların faydası nədir?

## Ekspert Nazirlər Kabinetinin qərarını şərh etdi



**Azərbaycanda sürücülük vəsiqəsi almaq istəyənlər üçün qaydalar dəyişdirilib. Bəs yeni qaydaların hər hansı bir faydası varmı?**

Öncə qeyd edək ki, Nazirlər Kabineti "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə"yə və "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"yə dəyişiklik edib.

Dəyişikliyə əsasən, "B" kateqoriyalı sürücülük vəsiqəsi almaq istəyən şəxs təcrübi imtahanı həm mexaniki, həm də avtomatik transmissiyalı nəqliyyat vasitəsində verə bilər. Mexaniki transmissiyalı nəqliyyat vasitəsində imtahanı müvəffəqiyyətlə vermiş şəxsə mexaniki və avtomatik transmissiyalı nəqliyyat vasitələrini idarə etmək hüququ verilir. Avtomatik transmissiyalı nəqliyyat vasitəsində imtahanı müvəffəqiyyətlə vermiş şəxsə isə yalnız avtomatik transmissiyalı nəqliyyat vasitələrini idarə etmək hüququ verilir.

Bundan başqa, digər dəyişikliyə görə, həm ölkə vətəndaşlarına, həm də əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlılıq müddəti bitməmiş sürücülük vəsiqəsi əsasında nəqliyyat vasitələrini ölkəyə daxil olduğu gündən bir ay müddətində idarə etmək hüququ verilib. Avtomobili həmin müddətdən artıq idarə etmək üçün sürücülük vəsiqəsi dəyişdirilməlidir.

**Bu dəyişikliklərlə bağlı "Yeni Müsavat"a danışan ekspert Ərşad Hüseynov bildirib ki, bu dəyişiklik sürücülərin xeyrinədir:** "Əgər sürücülər düşünürlər ki, hər zaman avtomatik ötürmələr qutusu olan nəqliyyat vasitəsi idarə edəcəklər, bu qaydalar birmənalı olaraq onların xeyrinədir. Minik avtomobili istehsalçıları əsasən avtomatik ötürmələr qutusuna üstünlük verirlər. Həvəskar sürücülərin də mütləq əksəriyyəti elə müasir avtomobil alırlar. Bu insanlar artıq gedib yalnız avtomatik ötürməli avtomobil üçün imtahan verəcəklər. Dünyada da belə təcrübə var. Ümumiyyətlə, müxtəlif ölkələrdə bu məsələyə yanaşma fərqlidir. Elə ölkələr var ki, orada avtomobilləri siniflərinə görə bölüblər. Hətta at gücünə görə bölgü də var. Mühərriki güclü olan avtomobillər üçün imtahan başqadır. Mexaniki ötürmələr qutusunu fərqləndirən ölkələr də var".

❑ Əli RAİS




# Azərbaycandan müalicə üçün xaricə göndərilənlərin sayı açıqlandı

**Ötən il Azərbaycandan kənarda müalicəyə göndərilən vətəndaşların sayı açıqlanıb. Səhiyyə Nazirliyinin Vətəndaşların respublikadan kənar müalicəyə göndərilməsi məsələləri üzrə komissiyasının sədri Nəsib Quliyev APA-ya bildirib ki, 2016-cı ildə komissiyaya 1655 nəfər vətəndaş ərizə ilə müraciət edib. Onlardan 4 nəfəri xəstəliyi ilə əlaqədar ölkədən kənar müalicəyə göndərilib.**

Komissiya sədri qeyd edib ki, həmin vətəndaşlardan ilkin mərhələdə müəyyən müalicə tədbirlərini xaricdə alan 2, sidik kisəsinin ekstrofiyası, qaraciyərin venasının venookluziv trombozu xəstəliyi olan 1 nəfərin xaricə getməsinə icazə verilib: "Qalan hallarda vətəndaşlar ölkədaxili müalicəyə cəlb edilib. 1264 nəfərin müalicəsi respublika daxilində mümkün olduğuna görə onlar müxtəlif tibb müəssisələrində yerləşdirilib. Müraciət edənlər arasında 204 nəfər əlillik dərəcəsi olan şəxs (uşaqlar və yaşlılar) qrup şəklində kurs müalicəsi almaq üçün ölkədən kənara - Türkiyəyə göndərilib. Onlardan da 183 nəfəri 18 yaşınadək uşaqdır".

**N.Quliyev qeyd edib ki, vətəndaşlar xaricdə müalicə üçün bütövlükdə Türkiyəyə göndərilib. Azərbaycanın Rusiya, Ukrayna və Türkiyə ilə qarşılıqlı anlaşmalarının olduğunu deyən komissiya sədri vurğulayıb ki, göstərilən yardımın səviyyəsi və ölkəmizə daha yaxın, həmçinin yüksək Almaniya və Amerika texnologiyası orada olduğu üçün Türkiyə əsas götürülür:** "Bu gün ölkədə bütün müalicə və müayinə metodları mövcuddur. Ona görə də vətəndaşların kütləvi olaraq müalicə olunmaq üçün xaricə göndərilməsinə ehtiyac yoxdur. Bütün bunlara görə ölkədə həm göndərilənlərin, həm də müraciət edənlərin sayı ildən-ilə azalır".

YENİ MÜSAVAT

Son səhifə

N 35 (6649) 16 fevral 2017



# İtlər sahibinin xarakterini mənimsəyir

İtlərin sahiblərinin xasiyyətini əks etdirdiyi barədə fikirlər artıq elmi baxımdan dəstəklənir. BBC-nin xəbərinə görə, Avstriyada alimlər deyirlər ki, itlər sahiblərinin narahatlığını və mənfi hisslərini əks etdirə bilər. Rahat, mehriban itlər isə bu keyfiyyətləri insanlara bəxş edərək sahiblərinə stressin öhdəsindən gəlməyə kömək edə bilər. 100-dən çox it və onların sahibləri müxtəlif testlərdən keçib, o cümlədən ürək ritmi və təhlükəyə reaksiya. Stressin əlaməti olan kortizol səviyyələrini ölçmək üçün tüpürcək nümunələri də götürülüb. Bundan başqa, sahibləri beş əsas xasiyyət əyarına əsasən qiymətləndiriblər: əsəbilik, ünsiyyətcillik, yeni təcrübələrə açıqlıq, xoşagəlimlilik və vicdanlılıq. İtlərin xasiyyətləri də anket vasitəsilə qiymətləndirilib.

Vyana Universitetindən Dr Iris Schoberl deyib ki, sahiblər və itlər bir-birinin mübarizə mexanizmlərinə təsir edib. Dr Schoberlə əsasən bu halda insanlar itlərdən daha təsiredici olub. “Əldə etdiyimiz nəticələr (real həyatda) gördüyümüzlə üst-üstə düşür: sahiblər və itlər sosial cütlükdür və onlar bir-birinin stresslə mübarizə mexanizminə təsir edir”, deyə alim BBC-yə bildirib. Onun sözlərinə görə, sahiblərinin emosional halları itlərə təsir edir və itlər həmin emosiyaları təkrarlaya bilər. İtlər 30 000 ildən çoxdur ki, insanlarla yan-yana yaşayır.

# Pop-korn yedi, milyoner oldu

Amerikalı Vayne Vatsonun bəxti gətirib. O, mikrodalğalı sobada hazırlanan pop-kornu yedikdən sonra onun qızardıldığı yağı iyləyib və xəstələnib. Özü də bu, sıradan yox, BOOP adlanan və tənəffüs yollarını bağlayan xəstəlikdir. V.Vatson isə iddia edib ki, pop-korn istehsal edən firma torbanın üzərində “popkorn torbasından çıxan duman tənəffüs yolları üçün təhlükəlidir” xəbərdarlığı yazmalı idi. Məhkəmə qadının bu iddiasını haqlı saydığı üçün ona 7.2 milyon dollarlıq maddi təzminat ödənilməsi barədə qərar verib. Amma qarşı tərəfin vəkilləri də iddia edib ki, qadın 2007-ci ildən bəri bu xəstəlikdən əziyyət çəkirmiş və buna səbəb onun illər boyunca xalça yuyulmasında istifadə



edilən kimyəvi maddələr olub. Xatırladaq ki, daha öncə pop-korn istehsalı ilə məşğul olan firmalar da eyni iddia ilə məhkəməyə müraciət edərək, iddianı qazanmışdı.

# Futbol ağlın itməsinə səbəb ola bilər



Futbol oynayan zaman kəllə ilə topu vurmaq beyin pozuntularına, daha sonra isə demensin (ağıl itirmək) inkişafına yol aça bilər. Bu barədə “Acta Neuropathologica” jurnalında dərc edilən və britaniyalı alımlər tərəfindən aparılan tədqiqatda qeyd olunub. BBC-nin xəbərinə görə, University College London və Cardiff Universitetinin mütəxəssisləri 5 peşəkar futbolçu və bir həvəskar futbolçu üzərində uzun müddət təhqiqat aparıblar. Ortalama 26 il ərzində futbol oynayan bu kişilərdə 60 yaşdan sonra ağıl zəifləməsi meydana gəlməyə başlayıb. Ölümdən sonra yarılma zamanı həkimlər onlardan 4-ündə “boks demensi” kimi məşhur olan xroniki ensefolapatiyanı aşkar ediblər.

“Biz onların beynini açan zaman orada boksçulara xas dəyişikliklərin getdiyini gördük. İlk dəfədir ki, futbolçuların karyeraları müddətində demensin inkişafına yol açan baş zərbələrini göstərmək mümkün oldu”, - deyə University College London-un professoru Hugh Morris BBC-yə açıqlamasında bildirib. Tədqiqat müəllifləri uşaqlarda top zərbəsindən sağlamlıqları üçün təhlükənin olduğunu analiz etmədiklərini xüsusi qeyd ediblər. İngiltərə Futbol Assosiasiyası idmançıların xəsarət almaları məsələsinin daha diqqətlə araşdırılacağına dair vəd verib.

Ekspertlər həvəskar futbolla məşğul olanların təhlükəli qrupa daxil olmadığını qeyd ediblər. ABŞ-da idmançılarda yaşlaşan zaman beyinin fəaliyyətinin pisləşməsi məhkəmə çəkişmələrinə səbəb olmuşdu. Belə ki. 2014-cü ildə ABŞ-ın Tələbə İdmanı Milli Assosiasiyası keçmiş idmançılara qaldırdıqları iddiaya görə 70 milyon dollar ödənildiyini bəyan etmişdi. Təşkilat nümayəndələrinin sözlərinə görə, bu vəsait beyin silkələnməsinin uzunmüddətli təsirinin öyrənilməsinə sərf ediləcək.




**QOÇ** - Astroloji göstəricilər daha çox şəxsi büdcənizin artacağından xəbər verir. Hətta bunun naminə digər məsələləri ikinci plana da sala bilərsiniz. Çünki ulduzlar gələn həftəyə imkanlı şəkildə qədəm qoyacağınızı bildirir.

**BUĞA** - İstər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə ümumi axar ürəyinizcə olacaq. Başlıca probleminiz olan maliyyə çətinlikləri isə qismən də olsa, qaydasına düşəcək.

**ƏKİZLƏR** - Günboyu qazanc əldə etmək üçün yaxşı imkanlarınız olacaq. Bu səbəbdən nahara qədər yarımçıq işlərinizi yekunlaşdırmağa çalışın. Nəzərə alın ki, bu ərəfə daxili tərəddüdlərinizi kifayət qədər səngidəcək.

**XƏRÇƏNG** - Saat 10-12 arası ətrafınızda, həmçinin daxilinizdə ümumi bir gərginlik hökm sürəcək. Bu isə ümumi ovqatınızı aşağı sala bilər. Yaxşı olar ki, həmin müddəti evdə keçirəsiniz. Sonrakı saatlar çox düşərlidir.

**ŞİR** - Bu təqvimi romantik tərzdə keçirmək istəyirsinizsə, aldığınız dəvətlərə “yox” deməyin. Çünki evdə qalmaq sizin üçün darıxdırıcı keçə bilər. Yeni işlərlə bağlı müəyyən səfərlər etmək olar.

**QIZ** - Perspektivlərinizin reallaşması üçün bir qədər mürəkkəb gündür. Hətta vəzifə pilləsində müəyyən uğursuzluq ehtimalınız da var. Odur ki, hər bir situasiyaya təmkinlə yanaşmağa çalışmalısınız.

**TƏRƏZİ** - İxtiyarınızda olan gün sizin üçün çox sakit keçəcək. Amma kiməsə borc vermək, ümumiyyətlə riskli sövdələşmələrə getmək uğurlu deyil. Bu gün sənədləşdirmə işlərinizi də qaydasına salın.

**ƏQRƏB** - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Amma nəzərdə tutduğunuz ideyaları həyata keçirmək üçün mütləq risk etməlisiniz. Onsuz da əksər işləriniz risklər hesabına reallaşır.

**OXATAN** - Qarşınızda uğurlu bir gün durur. Bu baxımdan, paralel olaraq bir neçə işdə fəaliyyət göstərə bilərsiniz. Hadisələrin müsbət inkişafı daha şanslı olmağınıza şərait yaradacaq.

**OĞLAQ** - Ümumi ab-hava əsəblərinizə mənfi təsir göstərsə də, bu, qarşınıza qoyduğunuz məqsədlərə yetişməkdə sizə mane olmayacaq. Hərdəmxəyallıq, acıdillilik etməyin. Yeni işlə bağlı uzaq dəvətlərə aludə olmayın.

**SUTÖKƏN** - Ulduzlar saat 12-yə qədər ayıq-sayıqlığınızı artırmağınızı məsləhət görür. Əlalxüsus da fəaliyyət zəminində baş verən bütün proseslərdə neytrallıq nümayiş etdirməlisiniz. Sonrakı saatlarda isə maraqlı hadisələrlə rastlaşacaqsınız.

**BALIQLAR** - Kosmik ahəngə uyğunlaşmağı bacarsanız, qayğılarınız da azalacaq. Qlobal problemlərinizin həll olunması üçün canfəşanlığınızı artırmalısınız. Bu addımınızı dəstəkləyən Göy qübbəsi bir çox məsələlərdə sizə yardımçı olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Kişilər artıq evliliyə daha ciddi yanaşır



İngiltərədə bir evlilik vəqfi tərəfindən maraqlı araşdırma hazırlanıb. Məlum olub ki, həyat yoldaşından ayrılmaq üçün məhkəməyə müraciət edən qadınların sayında son illərlə müqayisədə 27 faiz azalma müşahidə edilib. Araşdırmaçılar hesab edir ki, bu, təsadüfi sayılmaz. Bunun səbəbi isə kişilərin müsbətə doğru dəyişməsidir: “Kişilər artıq evliliyə daha ciddi yanaşır. Onlar həyat yoldaşlarına, ev işlərinə və uşaqların qayğısına daha ciddi yanaşır. Bu isə müsbət gəlişmədir”.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100